32/33 (1390) 14-27 avqust 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “BU GÜN BİZ CƏNUBİ QAFQAZDA SÜLHÜ BƏRQƏRAR EDİRİK”

“Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik, bu, nəinki bizim bölgəmiz, eyni zamanda, bütün dünya üçün böyük imkandır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan ilə mətbuata birgə bəyanatında deyib.

## “BU GÜN AZƏRBAYCAN XALQININ YADDAŞINA HƏKK OLUNACAQ”

- 1992-ci ildə, - Azərbaycan cəmi bir il əvvəl öz müstəqilliyini bərpa edəndən sonra, - bizə tətbiq olunan məhdudiyyət 33 ildən sonra ləğv edilib. Bu gün bu baş tutdu. Bu gün həqiqətən də Azərbaycan xalqının yaddaşına həkk olunacaq. Böyük şərəf və təşəkkür hissi ilə bu gün fikirlərimizi bölüşürük ki, Prezident Trampın strateji baxışı və münasibəti sayəsində nəinki bizim regionda, həmçinin son aylarda Asiyada, Afrikada və hazırda Cənubi Qafqazda müharibələrə son qoyulub. Otuz ildən çox idi ki, biz bu müharibəyə son qoya bilmirdik. Biz həyatları qurban verdik və çox pis müharibə içində idik və Prezident Tramp, onun komandası və bizim yaxın dostumuz cənab Uitkoff və onun komandası olmasaydı, yəqin ki, bu gün Ermənistan və Azərbaycan yenə bu bitməyən danışıqlar prosesində qalardı.

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ ERMƏNİSTANIN BAŞ NAZİRİNİN VAŞİNQTON ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞÜNƏ DAİR BİRGƏ BƏYANNAMƏ İMZALANIB

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzalayıbar.

Bəyannaməni təqdim edirik.



Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair

**BİRGƏ BƏYANNAMƏ**

Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək aşağıdakıları bəyan edirik:

1. Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə, biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq;

2. Biz, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;

3. Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

4. Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;

5. Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;

6. Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;

7. Biz bu vacib Zirvə görüşünə ev sahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik.

Bu Bəyannamə 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində imzalanmışdır.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Nikol PAŞİNYAN**
**Ermənistan Respublikasının Baş naziri**

**Şahidlik etdi:**
**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

## “BİZ HƏQİQƏTƏN DƏ YENİ TARİXİ SƏHİFƏYƏ İMZA ATIRIQ”

**“Bizim strateji tərəfdaşlığımız başlayır”,** - deyən dövlətimizin başçısı dünyanın ən böyük ölkəsi ilə strateji tərəfdaşlığı böyük imkan və böyük məsuliyyət kimi dəyərləndirib.

- Eyni zamanda, ABŞ və Azərbaycan arasındakı ikitərəfli münasibətlər yeni pilləyə qalxır və bizim strateji tərəfdaşlığımız artıq başlayır. Bu istiqamətdə bir neçə ay ərzində sənədlər və bütün mətnlər hazırlanacaq. Azərbaycan üçün bu, tarixi nailiyyətdir. Çünki bu gün strateji tərəfdaşlıq kontekstində dünyanın ən böyük ölkəsi ilə əlaqələr qurulur. Əlbəttə ki, bu, həm böyük imkan, eyni zamanda, böyük öhdəlik və məsuliyyətdir. Strateji tərəfdaşlıq formatı bir çox sahəni əhatə edir - qarşılıqlı investisiya, ticarət, rabitə, süni intellekt, tranzit, müdafiə sahəsi, terrorçuluğa qarşı mübarizə və digər sahələr də buraya daxildir. Ümid edirik ki, bu və digər sahələrdə çox fəal şəkildə əməkdaşlığa imza atacağıq. Böyük imkanlar, fürsətlər açılır. Azərbaycan bu istiqamətdə inkişaf edəcək, ölkənin iqtisadiyyatını şaxələndirəcəyik və bu gün də olduğu kimi, işsizliyi daha da azaldacaq, eyni zamanda, gələcəyə böyük nikbinliklə baxacağıq.




## “BU GÜN HƏQİQƏTƏN DƏ TARİXİ BİR GÜNDÜR”

- Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik. Bu, nəinki bizim bölgəmiz, eyni zamanda, bütün dünya üçün böyük bir imkandır. Beləliklə, həqiqətən də məhz “Tramp rifah və sülh marşrutu” rabitə, əlaqələr baxımından divarları yox edəcək, əlaqələr yaradacaq və bir sıra ölkələr üçün investisiya, sərmayə, sabitlik və rifah baxımından böyük imkanlar açacaqdır. Azərbaycan və Ermənistan eyni ərəfədə, Sovet İttifaqının süqutundan sonra müstəqil oldu. Amma o ərəfədə artıq biz müharibə içində idik. Biz, əlbəttə ki, bir çox illəri itirdik. Müharibələr, işğal və qan tökülməsi ilə bağlı narahatlıq içində idik. Bu gün tarixi gündür, sülh günüdür. Prezident Tramp Qafqaza sülh gətirir. Buna görə biz həqiqətən ona olduqca minnətdarıq. Əminəm ki, Ermənistan və Azərbaycan cəsarətlə sülhə nail olacaq və bizim xalqlarımız da barışacaqdır. Biz bu cür münaqişələrə və qan tökülməsinə son qoyacaq və uğurla irəli gedəcəyik.

## “CƏNAB TRAMP NOBEL SÜLH MÜKAFATINA LAYİQDİR”

- Mən təklif etmək istəyirəm. Bəlkə biz Baş nazir Paşinyanla razılaşaraq birgə bir təşəbbüs də irəli sürək, Nobel sülh mükafatının sülh komitəsinə göndərək ki, cənab Tramp bu mükafata layiqdir. Müharibə içində olan iki ölkənin rəhbərləri kimi bu tarixi imzalanma mərasimində iştirak etmək həqiqətən də real bir nailiyyətdir və heç kəs bu nailiyyətə imza ata bilmirdi.

Burada bir çox prezident olub. 1990-cı illərdən fəaliyyət göstərən fərqli prezidentlər olub və faktiki olaraq mənim erməni həmkarım ilə 1992-ci ildən başlayan Minsk prosesinə son qoyduq. ATƏT-in Minsk qrupu artıq 30 il idi ki, fəaliyyət göstərirdi. Bəs, indi Prezident Tramp deyilsə, bu sülh mükafatına kim layiqdir? Mən tarixə, çox qəribə qərarlara varmaq istəmirəm. Sülh Komitəsi bəzilərinə, ümumiyyətlə, həyatda bir iş görməyən adamlara bu mükafatı verib. Amma Prezident Tramp cəmi altı ay ərzində möcüzəyə imza atdı və əminəm ki, mənim Ermənistandan olan həmkarım bu təşəbbüsü dəstəkləyəcəkdir.

Buradakı auditoriyada əyləşənlərin reaksiyalarına əsasən, məncə, birgə məktub tərtib edə bilərik. Ümidvaram ki, Siz də məni həmin mərasimə dəvət edəcəksiniz və məmnuniyyətlə, həmin mərasimdə iştirak edərəm.

## ANLAŞMA MEMORANDUMU İMZALANIB

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında anlaşma memorandum imzalanıb.



Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin Prezidentləri tərəfindən “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu” imzalanıb.

Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur.

Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

# Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib. Həmin müsahibədən bəzi məqamları diqqətinizə çatdırırıq.



**"Cənab Trampla ilk görüşümüz çox xoş və nəticəyönümlü keçdi"**

- Mən cənab Trampla əvvəlki prezidentlik müddətində tanış olmuşam. Bu altı ay ərzində də, əlbəttə ki, mənim barəmdə öz komandası ilə tanış idi və bizim münasibətimiz həmişə müsbət olub. Keçən il biz onu dəstəklədik, bu, doğrudur. Yəni, bu insan Azərbaycan xalqı kimi ailə dəyərlərinə sadiqdir. Bu gün mətbuat konfransında dediyim kimi, bu altı ay ərzində o, Asiyada, Afrikada, Cənubi Qafqazda mümkünsüz görünən işləri gördü və sübut etdi ki, bu şəxs məhz real nəticələrə nail olur.

**"1992-ci ilin oktyabr ayında biz ədalətsiz şəkildə Konqres tərəfindən sanksiyaya məruz qaldıq"**

-Həmin dövrdə, əlbəttə ki, Konqres üzvləri - konqresmenlər Azərbaycandakı və ümumilikdə Cənubi Qafqazdakı vəziyyətdən bixəbər idilər. Onlar Ermənistanın lobbi qruplarının təsiri altında idilər və bu ərəfədə Azərbaycan təcavüzkar kimi təqdim olunmuşdu, qələmə verilmişdi. Bu da bizi birbaşa ABŞ-ın dəstəyindən məhrum etdi və ona görə də keçmiş Sovet İttifaqından çıxmış respublika sanksiyalara məruz qaldı. Əlbəttə ki, mürəkkəb bir vəziyyət idi.

Sonralar bu düzəliş dayandırıldı. ABŞ hökumətinin Əfqanıstanda dəstəyə ehtiyacı olduğuna görə Azərbaycan bu dəstəyi nəqliyyat vasitəsilə onlara təqdim edirdi. Bu, yüklərin şimal istiqamətində çatdırılmasını, eyni zamanda, nəqliyyat və hava məkanının verilməsi kimi məsələləri əhatə edirdi. 2023-cü ilə qədər hər il ABŞ prezidentləri bu düzəlişi müvəqqəti olaraq dayandırırdı.

Ancaq 2023-cü ildə gözləmədiyimiz hadisə baş verdi. Çünki biz gözləmirdik ki, belə bir yanaşma olsun. Yəni, Bayden administrasiyasından bu yanaşmanı gözləmirdik. Bayden administrasiyası Əfqanıstanda bizə ehtiyac olmadığı bir zamanda, bütün dünyanın gözü qarşısında faktiki olaraq ölkəni tərk etdi. Ondan sonra onlar həmin sanksiyaları yenidən Azərbaycana tətbiq etdilər.

Bu, yəqin ki, həmin mənfi münasibətin və yanaşmanın kulminasiyası idi. Onlar nankorcasına davrandılar və bu da Bayden administrasiyası ilə münasibətlərimizə ciddi şəkildə mənfi təsir göstərdi. Bu administrasiyanın sonuna qədər bizə qarşı münasibət belə də qaldı və bizim münasibətlərimiz çox böyük böhran içində idi. Ona görə Prezident Trampın bu jestinin bizim üçün böyük bir mənası vardır.

Əlbəttə ki, Azərbaycanın hazırda belə bir xarici dəstəyə, xarici yardıma ehtiyacı yoxdur. Bizim iqtisadiyyatımız sabitdir. Bizim, yəni, dövlətin xarici borcu ümumdaxili məhsulun 7 faizindən də aşağıdır. Biz özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, rəmzi bir xarakter daşıyan bu düzəliş ləğv olundu. Bu ədalətsizlik artıq aradan qaldırılıb və ədalət bərpa olunub. Bu, bizim üçün Prezident Tramp tərəfindən siyasi bir jest oldu və bu gün onun ofisində bu sənədə imza atdıq.

**"Strateji tərəfdaşlıq mətninin hazırlanması üçün Strateji İşçi Qrupu yaradılır"**

-Bu iki önəmli hadisə bu gün baş verib. Ona görə də mən bu günü tarixi bir gün adlandırıram. Bunun da bizim üçün çox önəmli müsbət təsirləri olacaqdır. Təbii ki, bu gün burada Azərbaycan və Ermənistan arasında baş verən hadisələr, həmçinin bütün bölgə üçün, rifah və sülh istəyən hər kəs üçün önəmli olacaqdır;

**"Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdir"**

-Bəli, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Ermənistan-Azərbaycan gələcək əlaqələri və təmasları sahəsində bir boşluq, bir vakuum yaranmışdı. O vaxt hələ fəaliyyət göstərmək istəyən ATƏT-in Minsk qrupu da demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Onlar bilmirdilər ki, nə etmək lazımdır. Çünki Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdir. Qarabağ münaqişəsi, Azərbaycan-Ermənistan münaqişəsi hərbi-siyasi yollarla öz həllini tapmışdır. Azərbaycan məhz o vaxt gələcək baxışlarını ortaya qoydu. Yəni ki, bu boşluq çox davam edə bilməz. Yəni, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmalıdır və onun təşəbbüskarı qeyd etdiyiniz kimi, biz olmuşuq. Biz o təşəbbüsü irəli sürəndən sonra yenə də heç yerdən cavab gəlmədi. Onda biz məlum əsas beş prinsipi ortaya qoyduq və bunun üzərində sülh sazişinin mətnini də biz hazırlamışdıq.

Bildiyiniz kimi, ondan sonra bizim təşəbbüsümüzlə danışıqlar prosesi başlamışdı. Danışıqlar prosesi o qədər də hamar getmirdi. Onun da əsas səbəbi ondan ibarət idi ki, o vaxt Ermənistan tərəfi sülh sazişinə Qarabağla bağlı müddəanı daxil etdirmək istəyirdi. Halbuki bu, heç bir məntiqə sığmayan, heç bir hüquqi və siyasi əsası olmayan məsələdir. Biz Ermənistan tərəfinə izah etməyə çalışırdıq ki, bu, bizim daxili məsələmizdir və dövlətlərarası sazişə hər hansı bir ölkənin daxili məsələsi daxil oluna bilməz. Ancaq buna baxmayaraq, Ermənistan təkidlə öz mövqeyindən geri çəkilmək istəmirdi. Yəqin ki, yadınızdadır ondan sonra Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüssel görüşləri keçirilmişdir. Ancaq yenə də əsas fundamental məsələ imkan vermirdi ki, tərəflər bu məsələdə razılığa gəlsinlər.

**"Ermənistanın Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılması məncə, tam real görünür"**

-Çünki birincisi onu deməliyəm ki, bizim bütün şərtlərimiz tam məntiqli, əsaslı və qanunauyğundur. Müxtəlif mərhələlərdə Ermənistan cəmiyyətində və hakim dairələrində belə bir fərziyyə irəli sürülürdü ki, sanki Azərbaycan Ermənistanın daxili işlərinə qarışmaq istəyir və hətta danışıqlar zamanı dəfələrlə belə bir məsələ qaldırılmışdı. Bizim isə mövqeyimiz ondan ibarət idi ki, bu, belə qəbul edilməməlidir. Bu, birbaşa bizə aidiyyəti olan məsələdir. Bizim ərazi bütövlüyümüzə olan açıq tələbdir, iddiadır. Ona görə bu düzəliş edilmədən sülh sazişi imzalana bilməz;

**"Uzun illərdir Azərbaycan ABŞ mediasında demonlaşdırılıb"**

Prezident Trampın ədalətli şəkildə "saxta xəbər" adlandırdığı media orqanlarında. "Washington Post", "New York Times", "Newsweek" və digər media qurumları müntəzəm olaraq Azərbaycan haqqında şayiələr yayır, bizə hücum edir, təhqiramiz məqalələr dərc edir və Amerika ictimai rəyini yanlış istiqamətə yönəldirdilər. Bunu əsasən erməni lobbi nümayəndələri edirdi. Elə həmin qrup bu gün erməni maraqlarına qarşı çıxış edir. Bu gün baş verənlərə sevinmək əvəzinə tamamilə məyusdurlar, çünki onların gündəliyi tamamilə fərqlidir. Məhz onlar işğala görə məsuliyyət daşıyırlar. Çünki onların ideyaları, məsləhətləri, pulları və müxtəlif erməni hökumətlərinə təsiri Ermənistanın özündə dağıdıcı rol oynadı. Əgər onlar və onlara bənzər qruplar olmasaydı, Ermənistan daha inkişaf etmiş, müstəqil və möhkəm dövlət sisteminə malik bir ölkə olardı. Onlar isə sadəcə, vaxt itirdilər. Vaxtlarını bizim torpaqlarımızın işğalına sərf etdilər, amma sonda bu işğalı əbədi saxlaya bilmədilər və inkişaflarında 30 il itirdilər.

**"Anti-Azərbaycan narrativləri tamamilə iflasa uğradı"**

-Bütün bunlar, ilk növbədə, Bayden administrasiyası və onların əlində olan siyasi infrastruktur – media, QHT-lər, USAID və Menendez kimi korrupsiyaya görə bu gün həbsdə olan bəzi rüşvətçi siyasətçilər tərəfindən illərlə yayılmış anti-Azərbaycan narrativlərini tamamilə iflasa uğradır. Buraya, həmçinin Adam Şiff də daxildir. Mən buraya gələndə öyrəndim ki, Merilend prokuroru ona ipoteka fırıldağına görə cinayət işi açıb.

Bu insanlar – Menendez, Şiff, Pelosi, Şerman, Markey, Kristofer Smit və başqaları Azərbaycana qarşı mütəmadi olaraq hücum edirdilər. Niyə etdiklərini bilmirəm, yəqin ki, erməni lobbisi onlara bunun üçün pul ödəyirdi. Onlar ciddi siyasi fiqurlar qrupunu təşkil edərək Azərbaycana qarşı mütəmadi işləyirdilər.

**"Bu gün Azərbaycan və Ermənistan arasında imzalanan sənəd isə bizim niyyətlərimizi açıq şəkildə göstərir"**

-Biz sülh istəyirik, amma, eyni zamanda, əlaqə istəyirik. Ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçid yaratmaq istəyirik ki, bu da daha geniş region, hətta Ermənistan üçün çoxlu imkanlar açacaq. Ermənistanın Baş naziri ilə görüşlərdən birində ona dedim ki, Ermənistan tranzit ölkəyə çevrilə bilər. Bildirdim ki, siz tranzit ölkə olmağın nə demək olduğunu bilmirsiniz, çünki heç vaxt olmamısınız. Yalnız Azərbaycan vasitəsilə tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil. Siz isə tranzit ölkə olmağın faydalarını görəcəksiniz.

**"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) başqa bir tarixi nailiyyət olacaq"**

- Ən qısa zamanda işə başlamalıyıq. Bu obyektə ABŞ rəhbərlik edəcək və ümidvaram ki, bütün region ölkələrinin xeyrinə olacaq bu əlaqə xətlərinin qurulması kimi mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq.

**"ABŞ ilə enerji sahəsində əməkdaşlığımız sürətlə inkişaf edir"**

Dünən "Exxon" və SOCAR arasında əməkdaşlıq haqqında imzalanmış bu Anlaşma Memorandumu əminəm ki, əhəmiyyətli bir layihə ilə nəticələnəcək.

İndidən nəsə demək istəmirəm, amma Azərbaycanda böyük neft yatağının kəşfi ilə bağlı yüksək ehtimal var. Bildiyiniz kimi, "Exxon" dünyanın aparıcı enerji şirkətidir, müasir texnologiyalar sahəsində böyük təcrübəyə malikdir və Azərbaycanda işləmək təcrübəsi də var. "Exxon" 1994-cü ildə bizim "Azəri-Çıraq-Günəşli" layihəmizə qoşuldu.

Dünən burada xüsusi nümayəndə cənab Vitkovun, ABŞ enerji nazirinin müavininin və mənim iştirakımla keçirilən imzalanma mərasimi əslində göstərir ki, biz bu layihənin gələcəyinə inanırıq. İnanmasaydıq, Anlaşma Memorandumunun imzalanmasında iştirak etməzdik. Mən nadir hallarda Anlaşma Memorandumunun imzalanmasında iştirak edirəm. Bəzən müqavilələrin imzalanmasında iştirak edirəm, amma bu, sadəcə, bir Anlaşma Memorandumudur. Lakin bizim ixtiyarımızda çoxlu texniki amillər var ki, bunlar böyük bir karbohidrogen yatağının kəşfinə işarə edir.

Enerji, şübhəsiz ki, əməkdaşlığımızın mühüm istiqamətlərindən biri olaraq qalacaq. Prezident Tramp ilə imzaladığımız Anlaşma Memorandumunda enerji xüsusi yer tutur. Enerji dedikdə bu neftdir, qazdır, potensial olaraq bərpaolunan mənbələrdir.

**"Bu gün Azərbaycan təbii qazını NATO-nun 10 üzvünə, ABŞ-ın 10 müttəfiqinə ixrac edir"**

-Boru kəməri vasitəsilə qaz çatdırılmasında isə biz 14 ölkəni əhatə edirik. Bu baxımdan, Azərbaycan dünyada aparıcı ölkələrdən biridir. Yaxınlarda Suriyaya təbii qaz ixracına başlamışıq. Beləliklə, biz artıq Yaxın Şərq regionuna da daxil olduq və Avropada, eləcə də Yaxın Şərqdə coğrafiyamızı genişləndirəcəyik.

Lakin bu, gələcək gündəliyimizin yalnız bir hissəsidir.

ABŞ ilə süni intellekt, rəqəmsal transformasiya sahələrində də sıx əməkdaşlıq etmək üçün böyük ümidlər var. Burada səfərim çərçivəsində komandamızın üzvləri ilə Amerika şirkətləri arasında ilkin təmaslar baş tutdu və gələcəkdə daha çox əməkdaşlıq olacaq. Bu gün həqiqətən də bütün aspektlərdən — təhlükəsizlik, sabitlik, Cənubi Qafqazda sülh, iqtisadi imkanlar, investisiyalar, enerji təhlükəsizliyi və digər sahələr baxımından tarixi bir günə şahidlik edirik.

## Rusiya XİN Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton danışıqlarını müsbət qiymətləndirib

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib ki, Rusiya Federasiyası Cənubi Qafqazda sabitlik və tərəqqi zonasının yaradılmasında maraqlıdır, eyni zamanda, ən mühüm şərtlərdən biri Azərbaycan ilə Ermənistan arasında münasibətlərin hər iki ölkə xalqlarının maraqlarına uyğun hərtərəfli normallaşmasıdır.



Onun sözlərinə görə, Rusiya regional təhlükəsizlik naminə bu əsas məqsədə nail olmaq üçün bütün səyləri ardıcıl olaraq dəstəkləyir. Bu baxımdan Amerika tərəfinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda keçirilən görüşü müsbət qiymətə layiqdir.

RF Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi qeyd edib ki, Rusiya tərəfi Vaşinqtonun regional kommunikasiyaların açılması ilə bağlı bəyanatlarını əlavə olaraq təhlil edəcək. O, Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin imzalanması və qüvvəyə minməsinin iki Cənubi Qafqaz respublikasında sülhün bərqərar olmasında mühüm əhəmiyyət kəsb edəcəyini vurğulayıb.

## Vaşinqton razılaşması Cənubi Qafqazda uzunmüddətli sülhə doğru atılan tarixi addımdır

Avqustun 8-də Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda keçirilən görüşdə əldə olunmuş razılaşma Cənubi Qafqazda uzunmüddətli sülhə doğru yolda tarixi addım oldu.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 11-də Ankarada hökumətin iclasının yekunlarına dair brifinqdə bildirib.

O xatırladıb ki, Azərbaycan torpaqlarının uzunmüddətli erməni işğalından azad edilməsi ilə regionun inkişafında yeni mərhələ başlayıb.



Türkiyə lideri Azərbaycanla bağlı məhdudiyyətlərin aradan qaldırılmasını da alqışlayıb.

"Türkiyə tərəfinin məmnunluğunu qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdım. Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını vurğuladım", - deyə dövlət başçısı Ermənistanın Baş naziri Nikol Paşinyanla bugünkü söhbətində bu mövzunu müzakirə etdiyini əlavə edib.

Siyasətçinin sözlərinə görə, regionda sülh mühitinin formalaşması ilə avtomobil və dəmir yolu əlaqələri bərpa olunacaq, sərhəd-keçid məntəqələri açılacaq, azad ticarətə maneələr aradan qaldırılacaq ki, bu da bütün region dövlətlərinin maraqlarına cavab verir.

Prezident Ərdoğan əmin edib ki, Ankara bölgədə sülh və sabitlik naminə mübarizəni davam etdirəcək.

# *Azərbaycan ziyalıları, Azərbaycan İqtisadçılar İttifaqının üzvləri Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı Vaşinqtonda keçirilən görüşü, liderlərin imzaladığı Birgə Bəyannaməni yüksək qiymətləndirmişlər.*

## *"İlham Əliyevin Ağ Evdəki məğrur duruşu və nitqi bir daha sübut etdi ki, o, dünya miqyaslı liderdir"*

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-yə səfəri çərçivəsində bir çox mühüm məsələlərin həlli istiqamətində danışıqlar aparıb. Avqustun 8-də Vaşinqtonda Prezident İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu imzalayıblar.

Milli Məclisin deputatı Ziyad Səmədzadə memorandumun əhəmiyyəti ilə bağlı fikirlərini Crossmedia.az-la bölüşüb:

"Bu memorandum həm Azərbaycan, həm də Ermənistan üçün tarixi əhəmiyyət kəsb edən sənəddir. İki dövlət və xalq arasında əsrlər boyu davam edən münaqişənin həlli yolunda atılmış ən mühüm addımlardan biridir. Azərbaycan dövlətinin və xalqının apardığı uğurlu siyasət, ölkəmizin Cənubi Qafqazın lideri olması və dövlət siyasətinin effektivliyi Azərbaycanın haqq səsinin bütün dünya tərəfindən qəbul edildiyini sübut etdi. Erməni faşizmi üzərində qələbədən sonra bəzi erməni dairələri və onların havadarları sülh müqaviləsinin imzalanmasına qarşı çıxaraq təxribatlar törətməyə çalışırdılar. Lakin ABŞ Prezidenti Donald Tramp bu məsələdə təşəbbüs göstərərək müharibənin qarşısını almaq üçün səy göstərəcəyini bəyan etdi. Bu səylərin nəticəsi avqustun 8-də Ağ Evdə keçirilən görüşdə aydın şəkildə özünü göstərdi. Prezident İlham Əliyevin Ağ Evdəki məğrur duruşu və nitqi bir daha sübut etdi ki, o, dünya miqyaslı liderdir. Yaradılmış İşçi Qrupu, inanıram ki, hər üç tərəfin maraqlarını nəzərə alan sülh müqaviləsinin bağlanması istiqamətində səmərəli fəaliyyət göstərəcək. ABŞ hazırda dünya siyasətində mühüm mövqe tutur və həm Rusiya-Ukrayna müharibəsini, həm də dünyadakı digər münaqişələri dayandırmağı hədəfləyir."

**Mənbə: crossmedia.az**



"Vaşinqton razılaşması uzunmüddətli ardıcıl diplomatik səylərin nəticəsidir.

ABŞ ilə Azərbaycan arasında müdafiə və əməkdaşlıq sazişi imzalanıb, ABŞ Konqresinin 907-ci düzəlişinin ləğv edilməsi qərara alınıb. Bu qərar ilə Azərbaycan bundan sonra ABŞ tərəfindən heç bir silah və iqtisadi embarqoya məruz qalmayacaq. Bu, Azərbaycanın Cənubi Qafqazda regional gücə çevrilməsinə mühüm töhfə verəcək. Digər tərəfdən, bu razılaşma bölgədə geosiyasi mənzərəni müsbət tərəfə dəyişdirəcək. Belə ki, bu mərhələdən sonra həm Ermənistan diasporunun, həm Fransanın, həm də ATƏT-in Minsk qrupunun bölgəyə təsiri azalacaq, manipulyasiya imkanları məhdudlaşdırılacaq".



**Qorxmaz İmanov, AMEA-nın müxbir üzvü**

"Avqustun 8-də Vaşinqtonda, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında imzalanan Birgə Bəyannamə Cənubi Qafqazın son onilliklərdə gördüyü ən mühüm siyasi hadisələrdən biridir.



Bu mühüm tarixi sənəd iki ölkə arasında diplomatik münasibətlərin bərpasını, ərazi bütövlüyünün qarşılıqlı tanınmasını, nəqliyyat və ticarət əlaqələrinin genişləndirilməsini və regionda davamlı sülhün təmin olunmasını nəzərdə tutur".

**Rəsul Balayev, professor**

"Razılaşmanın əsas hissəsi "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) adlı strateji tranzit dəhlizinin yaradılmasıdır. Bu dəhliz Naxçıvanla birbaşa əlaqəni təmin edəcək. Layihə çərçivəsində dəmir və avtomobil yolları, neft-qaz kəmərləri və fiber-optik rabitə infrastrukturu inşa ediləcək. TRIPP-nin məqsədi Mərkəzi Asiya, Yaxın Şərq və Avropa bazarlarını birləşdirən təhlükəsiz və sürətli ticarət marşrutu yaratmaqdır".



**Arif Hüseynov, professor**

"Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda keçirilən görüşdə əldə olunmuş razılaşmaya görə hər iki tərəf 1991-ci il Alma-Ata Bəyannaməsi və BMT Nizamnaməsinin prinsipləri əsasında mehriban qonşuluq münasibətləri qurmağa hazır olduqlarını bildirib. Bu, münaqişəyə son qoyaraq, onu əməkdaşlıqla əvəzləyəcək, Cənubi Qafqazda sabitlik və rifahı təmin etmək üçün real imkanlar açacaq. Bu münasibətlə Azərbaycan xalqını ürəkdən təbrik edirəm".



**Vahid Novruzov, Azərbaycan Auditorlar Palatasının sədri, professor**

"Vaşinqton razılaşmasından sonra Ermənistan bir daha Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyəcək. Bu ölkənin ərazisindən Azərbaycana qarşı hərbi məqsədlərlə istifadəyə imkan verilməyəcək. Azərbaycanla şərti sərhəddə müşahidələr aparan Avropa İttifaqının mülki missiyası bölgəni tərk edəcək. Bütün bunlar və digər bir çox önəmli məqamlar Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnində öz əksini tapıb".



**Məhiş Əhmədov, UNEC-in professoru**

"Mən Ermənistan ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanmasını alqışlayıram. Əminəm ki, bu mühüm sənəd Cənubi Qafqaz xalqlarının rifahının yaxşılaşdırılmasına xidmət edəcək.

Regionda sülh mühitinin formalaşması ilə avtomobil və dəmir yolu əlaqələri bərpa olunacaq, azad ticarətə maneələr aradan qaldırılacaq ki, bu da bütün region dövlətlərinin maraqlarına cavab verir".



**Bəyalı Ataşov, professor**

# "Tramp və Cənubi Qafqazda sülh - Zəngəzur dəhlizindən TRIPP-yə"

Rumıniyanın tanınmış siyasi analitiki, Rumıniya Prezidentinin sabiq müşaviri Yulian Kifu Ermənistan və Azərbaycan arasında ABŞ-ın vasitəçiliyi ilə əldə olunan tarixi sülh razılaşmasının geosiyasi və iqtisadi nəticələrini təhlil edərək "Calea Europeana" nəşrində "Cənubi Qafqazda yeni geoiqtisadi səhifə açılır" sərlövhəli analitik məqalə yazıb.

AZƏRTAC xəbər verir ki, yazıda avqustun 8-də ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Ağ Evdə Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev arasında imzalanan Birgə Bəyannamənin 40 ilə yaxın davam edən münaqişəyə son qoymaq məqsədi daşıdığı vurğulanıb. Sənəd qarşılıqlı ərazi bütövlüyünün tanınmasını, gücdən istifadədən imtinadan və beynəlxalq hüquqa əsaslanan əməkdaşlıq prinsiplərini təsbit edir. Y.Kifu yazır ki, razılaşmanın ən mühüm bəndlərindən biri Ermənistan ərazisindən keçəcək "Trump Route for International Peace and Prosperity" (TRIPP) adlı strateji dəhlizin yaradılmasıdır. Bu dəhliz Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirəcək dəmir yolu, enerji, fiber-optik rabitə və potensial elektrik xətləri üçün regional tranzit imkanları yaradacaq. ABŞ bu marşrutu inşa etmək və 99 il ərzində idarə etmək hüququ əldə edib.

Analitikə görə, TRIPP dəhlizi yalnız iqtisadi layihə deyil, həm də geosiyasi alətdir. ABŞ regionda nüfuzunu artırarkən, Rusiyanın ənənəvi vasitəçi rolu zəifləyir. Türkiyə layihəni regional əlaqələrin inkişafı baxımından müsbət qarşılayıb. İran isə təhlükəsizlik risklərini əsas gətirərək dəhlizin qarşısını almaqla hədələyib.a

Müəllif bildirir ki, Ermənistan diasporu və bəzi daxili siyasi qüvvələr layihənin suverenlik və ərazi bütövlüyünə təsiri ilə bağlı narahatlıqlarını bildirir. Digər tərəfdən, Azərbaycan tərəfi üçün bu, Naxçıvanla birbaşa əlaqənin qurulması və regionda logistika üstünlüyü əldə etmək baxımından tarixi imkandır. Müəllifin fikrincə, Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrü başlaya bilər, lakin bu, iştirakçı ölkələrin siyasi iradəsi və böyük güclərin balanslı yanaşmasından asılı olacaq. TRIPP dəhlizi isə iqtisadi faydalardan əlavə, beynəlxalq siyasətin necə biznes imkanına çevrilə biləcəyinin bariz nümunəsidir.

# Ədalətsiz düzəlişin tətbiqi 33 ildən sonra dayandırıldı

Bakı ilə Vaşinqton arasındakı münasibətlərdə gərginlik yaradan 907-ci düzəliş tarixə qovuşdu. ABŞ Konqresi tərəfindən 1992-ci ilin oktyabrından etibarən "Azadlığı Müdafiə Aktı"na edilən 907-ci düzəlişlə Birləşmiş Ştatların Azərbaycana birbaşa yardımı qadağan edilirdi. Bunungla Azərbaycan postsovet məkanında ABŞ-ın yardımını və dəstəyini birbaşa qəbul edə bilməyən yeganə dövlətə çevrilmişdi. Bu, həmin vaxt Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalan Azərbaycana qarşı görünməmiş tarixi ədalətsizlik idi. Azərbaycan-ABŞ münasibətlərinə kölgə salan, ikitərəfli əlaqələrdə gərginlik yaradan bu müddəanın 33 ildən sonra ləğvi, bu ədalətsiz düzəlişin tətbiqinin dayandırılması Azərbaycan diplomatiyasının tarixi uğurudur.



# BMT Baş katibi Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannaməni alqışlayıb

BMT Baş katib Antonio Quterreş Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampla birgə imzaladığı Birgə Bəyannaməni Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında mühüm mərhələ kimi alqışlayır.

AZƏRTAC-ın məlumatına görə, bu barədə BMT Baş katibinin sözçüsü Stefan Dujarrikin bəyanatında deyilir.



Bildirilir ki, Baş katib Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın davamlı dialoq və etimadın yaradılmasına sadiqliyini alqışlayır və Prezident Trampın tərəqqiyə kömək etmək səylərini tanıyır. **"Baş katib Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün bütün səylərə Birləşmiş Millətlər Təşkilatının güclü dəstəyini bir daha təsdiqləyir",-** deyə bəyanatda vurğulanır.

# Vaşinqton razılaşması Cənubi Qafqazın gələcəyi baxımından tarixi hadisədir

"Azərbaycan ilə Ermənistan arasında qalıcı sülhün təmin olunması istiqamətində avqustun 8-də Vaşinqtonda ortaya qoyulan ortaq iradə Cənubi Qafqazın gələcəyi baxımından tarixi hadisədir. Beynəlxalq münaqişə və böhranların getdikcə dərinləşdiyi bir dövrdə əldə edilən bu irəliləyiş, regional sülh və sabitlik baxımından strateji əhəmiyyətə malikdir. ABŞ administrasiyasının həlledici rolu təqdirəlayiqdir. Bununla yanaşı, prosesin bugünkü mərhələyə çatmasında Türkiyənin israrlı diplomatik təşəbbüslərinin və Prezident Rəcəb Tayyib Ərdoğanın regional və qlobal sülh naminə həyata keçirdiyi intensiv lider diplomatiyasının töhfəsi böyükdür".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ankara Hacı Bayram Veli Universitetinin professoru, Türkiyənin SETA-Siyasi, İqtisadi və İctimai Araşdırmalar Vəqfinin tədqiqatçısı Erman Akıllı deyib.

O bildirib ki, on illərdir davam edən münaqişənin həllində əldə olunan bu irəliləyiş, yalnız tərəflərin sülhə olan sadiqliyini deyil, eyni zamanda, Türkiyənin qətiyyətli və konstruktiv diplomatik səylərinin konkret nəticələrini də əks etdirir. Erman Akıllının sözlərinə görə, Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə aparılan regional diplomatiya, Bakı ilə İrəvan arasındakı dialoq zəminini möhkəmləndirib, qarşılıqlı etimad mühitinin formalaşmasına töhfə verib. Ankara İkinci Qarabağ müharibəsindən sonra yaranmış fürsət pəncərəsinin bağlanmaması üçün prosesi daim gündəmdə saxlayıb, Ermənistanı sülh masasının ətrafında saxlayacaq mexanizmlərin yaradılmasında qabaqcıl rol oynayıb. Türkiyə bu səyləri ilə yalnız vasitəçi deyil, daimi sülhün memarlarından birinə çevrilib.

*"Gələnən bu mərhələdə Cənubi Qafqazın əmin-amanlığa və rifaha qovuşması üçün tarixi bir imkan yaranıb. Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyində Türkiyə qardaş Azərbaycanın fədakar səylərinə tam dəstək verməyə, regional sülhün təmin olunması istiqamətində konstruktiv təşəbbüslər irəli sürməyə və tərəflərlə sıx təmasda olaraq prosesi irəlilətməyə davam edəcək. Bu diplomatik baxış, yalnız Qafqazda deyil, ətraf bölgələrdə də sabitliyi və əməkdaşlığı möhkəmləndirən bir model kimi ön plana çıxır",* - deyə professor əlavə edib.

# İlham Əliyevin Strateji Modeli: Zəfər, İqtisadi Güc və Sülhün Harmoniyası

**“Sülhü qorumağın ən yaxşı yolu müharibəyə hazır olmaqdır”.**

**(Corc Vaşinqton)**

***Azərbaycanın müasir tarixi son iyirmi ildə böyük dəyişikliklərə şahidlik etdi. Prezident İlham Əliyevin siyasi iradəsi, strateji baxışı və qətiyyətli liderliyi nəticəsində ölkəmiz təkcə hərbi cəbhədə deyil, həm də diplomatiya meydanında qalib gəldi. 2020-ci ilin 44 günlük Vətən müharibəsi ilə əldə edilən tarixi zəfər Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, regionun gələcək təhlükəsizlik arxitekturasını da dəyişdirdi.***

44 günlük Vətən müharibəsində qazanılan qələbə təsadüfi hərbi uğur deyildi. Bu, illərlə aparılan sistemli hazırlığın, beynəlxalq hüququn incəliklərinin dəqiq tətbiqinin, hərbi texnologiyaların optimal istifadəsinin və diplomatik masada sərt, amma rasional mövqenin nəticəsi idi. Sülhü qorumağın ən yaxşı yolu, müharibəyə hazır olmaqdır.

Corc Vaşinqtonun dediyi kimi, “Müharibəni qazanan döyüş başlamazdan əvvəl qazanandır”. Azərbaycan rəhbərliyi də qələbəni məhz döyüş meydanına çıxmazdan əvvəl planlaşdırmışdı.

***Davamlı zəfər və sülh iqtisadi gücün möhkəm təməlində yüksəlir***

Müasir dünyada qalib gəlmək yalnız hərbi qüdrətə əsaslanmır. Davamlı zəfər və dayanıqlı sülh güclü iqtisadiyyatın üzərində qurulur. Prezident İlham Əliyevin rəhbərliyində Azərbaycan 2020-ci ildə qazandığı tarixi qələbəni iqtisadi güc vasitəsilə möhkəmləndirir və sülhün davamlı olması üçün real mexanizmlər yaradır.

Vətən müharibəsindəki qələbə illərlə qurulan iqtisadi bünövrənin nəticəsi idi. Güclü iqtisadiyyat müasir orduya, texnologiyalara və infrastruktur layihələrinə böyük sərmayə yatırmaq imkanı yaratdı. İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində neft gəlirləri strateji ehtiyat fondlarına yönəldildi, hərbi və sosial layihələrin davamlı maliyyələşməsi təmin olundu.

Müharibədən sonra regionda yeni iqtisadi əməkdaşlıq formatları yaradıldı. Zəngəzur dəhlizi, nəqliyyat xətləri, enerji layihələri və ticarət yolları Cənubi Qafqazı qarşılıqlı asılılıq və əməkdaşlıq mühitinə daxil edir. İlham Əliyev bu strategiya ilə sübut edir ki, iqtisadi inteqrasiya, sülhün ən möhkəm təminatıdır.

Azad olunmuş ərazilərdə həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” layihələri, enerji və logistika mərkəzləri Qarabağı iqtisadi mərkəzə çevirir. Bu, təkcə bərpa prosesi deyil, həm də qələbənin iqtisadi-siyasi davamıdır.

İlham Əliyevin xarici siyasət kursu Azərbaycanın iqtisadi gücünü diplomatik alət kimi istifadə etməyə imkan verir. Enerji resursları, tranzit imkanları və beynəlxalq tərəfdaşlıqlar sayəsində Azərbaycan qalib mövqeyini sülh masasında da qoruyur.

Prezident İlham Əliyevin siyasəti sübut edir ki, iqtisadi güc təkcə milli təhlükəsizlik üçün deyil, həm də zəfərin möhkəmlənməsi və sülhün təminatı üçün əsas sütundur. Zəfər hərbi meydanda qazanılır, amma sülh iqtisadi və siyasi meydanda möhkəmləndirilir.

**Strateji liderlik – bu günü düşün, sabahı qazan sənəti**

“Strateji liderlik, bu günü düşünərək sabahı qazan” - Prezident İlham Əliyevin dövlət idarəçiliyindəki üslubunu və fəlsəfəsini tam şəkildə əks etdirir. Onun liderliyində hər bir qərar yalnız bu günün problemlərinə cavab vermir, həm də gələcəyin təhlükəsizliyini və inkişafını təmin edir.

2003-cü ildən bu günə qədər İlham Əliyevin fəaliyyətinin əsas xətti Azərbaycanın müstəqilliyini möhkəmləndirmək olub. Güclü ordu, müasir diplomatiya, iqtisadi müstəqillik və milli həmrəylik – bunların hər biri xalqın təhlükəsizliyinin təminatıdır. 2020-ci ildə əldə olunan tarixi Zəfər liderin “xalqını qorumaq” prinsipinin ən parlaq nümunəsidir.

İlham Əliyev Zəfərdən sonra diqqəti regionda sabitliyin yaradılmasına,



yeni təhlükəsizlik arxitekturasının formalaşmasına yönəltdi. Bu, yalnız hərbi gücün deyil, diplomatik bacarığın da göstəricisidir. Xalqını qorumaq, həm də onun milli-mənəvi dəyərlərini yaşatmaq deməkdir. Mədəniyyət, dil, tarix və dini irs sahəsində aparılan işlər, Qarabağda bərpa olunan məscidlər və tarixi abidələr bu siyasətin tərkib hissəsidir.

İlham Əliyev illərlə Azərbaycan ordusunun gücləndirilməsi, iqtisadiyyatın möhkəmləndirilməsi və beynəlxalq nüfuzun artırılması üçün sistemli siyasət həyata keçirdi. 2020-ci ildə əldə olunan Zəfər bu strateji hazırlığın məntiqi nəticəsi idi. Döyüş meydanındakı uğur illərlə qurulan siyasi, diplomatik və iqtisadi bünövrənin üzərində yüksəldi.

İlham Əliyev regionda dayanıqlı sülhün təmin olunması üçün diplomatik kanalları gücləndirdi, yeni nəqliyyat və iqtisadi layihələrlə Cənubi Qafqazın gələcəyini formalaşdırdı.

Azərbaycanın enerji siyasəti, beynəlxalq bazarlara inteqrasiya və regional iqtisadi əməkdaşlıq təşəbbüsləri bu gün əldə olunan nailiyyətlərin gələcək nəsillərə təsir edəcəyini göstərir. Cənub Qaz Dəhlizi, “yaşıl enerji” layihələri və Qarabağda qurulan enerji infrastrukturunun əsası illər əvvəl qoyulmuşdu.

Strateji liderlik hadisələri qabaqcadan görmək və vaxtında hərəkətə keçmək bacarığıdır. İlham Əliyev daxili və xarici siyasətdə məhz bu bacarığı ilə fərqlənir – iqtisadi böhranlar zamanı sabitliyi qorumaq, beynəlxalq böhranlarda milli maraqları müdafiə etmək və hərbi əməliyyatlarda ən doğru anı seçmək onun idarəçilik məktəbinin əsas dərslərindəndir.

Elmi tədqiqatlar göstərir ki, liderin özünə güvənməsi həm strateji qərarların dəqiqliyini artırır, həm də komandanın motivasiyasını yüksəldir. Sosial-psixoloji baxımdan, özünə inamlı lider çətin vəziyyətlərdə daha soyuqqanlı və düşünülmüş addımlar ata bilir, riskləri düzgün qiymətləndirərək, imkanları maksimum dərəcədə dəyərləndirir.

Xatırlayaq, 2008-ci ildə Gürcüstan prezidenti Mixail Saakaşvili rus qoşunlarının Qori şəhərinə daxil olması zamanı əzələ zəifliyi və çaşqınlıq nümayiş etdirirdi – qalstukunu çeynəməsi isə onun psixoloji gərginliyinin açıq simvolu idi. Bu hadisə liderin özünə inamının, streslə mübarizədə zəifliyinin açıq göstəricisi kimi qəbul edildi və dövlətin mövqeyinə ciddi zərbə vurdu.

Əksinə, İlham Əliyev çətinliklər qarşısında soyuqqanlılığını qoruyaraq, bilik və strateji düşüncə ilə hərəkət etmiş, milli maraqları prioritet qoymuşdur. Onun qətiyyəti və özünə inamı komandanı ruhlandırmış, ordunun və xalqın həmrəyliyini təmin etmişdir. Bu nümunə göstərir ki, liderin uğuru yalnız resurslarla deyil, həm də psixoloji və strateji hazırlıqla bağlıdır.

Bu yanaşma həm idarəetmə elmləri, həm də beynəlxalq münasibətlər nəzəriyyəsində təsdiqlənir: liderin özünə inamı komanda effektivliyini artırır və uzunmüddətli uğurları təmin edir. İlham Əliyevin nümunəsi isə müasir dövrdə strateji liderlik anlayışının canlı təcəssümüdür.

Napoleon Bonapartın “Strateji elm - zəfərin kompasıdır” fikri bu kontekstdə Azərbaycanın siyasətinə tam uyğundur. İlham Əliyevin liderliyi sübut edir ki, strateji düşüncə yalnız bu günün uğurunu deyil, gələcəyin zəmanətini yaradır. Onun siyasi kursu, bu gün atılan addımların sabahkı qələbələrə çevriləcəyinin ən bariz nümunəsidir.

***Azərbaycanın Dayanıqlı İnkişaf Modeli***

Azərbaycanın müasir uğurları, sadəcə tarixi zəfərlərlə məhdudlaşmır. Bu zəfərlər möhkəm iqtisadi baza və dayanıqlı sülh vasitəsilə möhkəmlənir. Prezident İlham Əliyevin strateji liderliyi sayəsində ölkəmiz bu üç əsas sütun üzərində güclü dövlət kimi inkişaf edir.



*İqtisad elmləri doktoru (TC, RF, AR), prof. Zahid Fərrux Məmmədov*



*Hüquq elmləri doktoru, dos. Mirəli Kazımov*

44 günlük Vətən müharibəsində əldə edilən qələbə Azərbaycan xalqının birliyinin, ordunun və dövlət siyasətinin uğurlu sintezidir. Bu zəfər yalnız döyüş meydanında deyil, beynəlxalq arenada da Azərbaycanın mövqeyini möhkəmləndirdi. Lakin bu qələbənin təməlində illərlə qurulan iqtisadi və siyasi strategiyalar dayanır.

Milli iqtisadiyyatın gücləndirilməsi, strateji enerji layihələrinin reallaşdırılması və qeyri-neft sektorunun inkişafı Azərbaycanın dayanıqlı inkişafının təməlini təşkil edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa işləri zəfərin iqtisadi davamı olaraq sülhün möhkəmlənməsinə xidmət edir. Bu iqtisadi güc diplomatik arenada Azərbaycanın əlini gücləndirir və regionda sülhün qorunmasına real töhfə verir.

Sülh dövründə regionda iqtisadi əməkdaşlıq genişlənir, investisiyalar artır, nəqliyyat və enerji xətləri açılır. Zəngəzur dəhlizi kimi layihələr regional inteqrasiyanı gücləndirir və Azərbaycanı həm regional, həm də qlobal iqtisadi şəbəkələrdə möhkəmləndirir. Dayanıqlı sülh ölkəmizin gələcək nəsillərə sabitlik və firavanlıq gətirməsinin əsas şərtidir.

Beləliklə, müasir müharibələrdə yalnız taktiki və strateji biliklər deyil, həm də maliyyə dəstəyi və resursların səmərəli idarə olunması uğurun təməlində dayanır. Azərbaycanın bu sahədə əldə etdiyi uğur İlham Əliyevin bütün prosesləri kompleks və sistemli idarəetmə qabiliyyətinin bariz nümunəsidir.

Bu nümunə göstərir ki, qətiyyətli liderlik, mükəmməl planlaşdırma və çevik hərbi strategiya müasir müharibələrdə uğurun əsas amilləridir. İlham Əliyevin idarəçiliyi Azərbaycanın regional mövqeyini möhkəmləndirərək, uzun müddətli sülh və sabitliyin təminatına xidmət etdi.

***Sülh imzalanmasının uğurları***

Vaşinqtonda imzalanan sülh sənədi isə bu strateji yanaşmanın davamıdır. Burada məqsəd yalnız hərbi üstünlüyü qorumaq deyil, həm də regionda uzunmüddətli iqtisadi sabitlik və geosiyasi balans yaratmaqdır.

2025-ci ilin 8 avqust tarixində Ağ Evdə keçirilən mərasimdə ABŞ prezidenti Donald Trump, Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan sülh sazişini imzaladılar. Bu sənəd Ermənistan və Azərbaycan arasında 37 illik münaqişəni bitirməyi hədəfləyir. Saziş Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasındakı maneəsiz nəqliyyat koridorunu yaradır.

Bu dəhliz vasitəsilə Avropa və Cənubi Qafqaz arasında yeni tranzit əlaqələri təmin ediləcək. Eyni zamanda yeni nəqliyyat və enerji imkanları regionda yenidənqurma və inteqrasiya üçün zəmin yaradacaq. Bu, Azərbaycanın tranzit ölkə statusunu möhkəmləndirir. Dəhliz vasitəsilə Türkiyə-Azərbaycan-Mərkəzi Asiya-Çin marşrutu güclənir, həm Bakı-Tbilisi-Qars dəmir yolu, həm də Orta Dəhliz ilə inteqrasiya artır. Beynəlxalq tranzit rüsumları, logistika xidmətləri və yeni liman bağlantıları dövlət büdcəsinə əlavə gəlir gətirəcək. Zəngəzur dəhlizi ilə Naxçıvan blokadası aradan qaldırılır, bu da yerli iqtisadi potensialı artırır və regionu Azərbaycanın iqtisadi sisteminə sıx inteqrasiya edir

ABŞ-ın bu prosesi vasitəçilik etməsi beynəlxalq reallıqda Azərbaycanın sülh gündəliyinin tanınmasına səbəb oldu. 1992-ci ildən bloklanan 907-ci düzəlişin dayandırılması isə strateji tərəfdaşlığa yeni imkanlar açdı. ABŞ-ın Azərbaycana tətbiq etdiyi məhdudiyyətlərin ləğvi ABŞ dövlət maliyyələşdirməli layihələrdə Azərbaycan şirkətlərinin iştirakını mümkün edir. ABŞ-ın OPIC (Overseas Private Investment Corporation) və EXIM Bank kimi institutlarının Azərbaycanda fəaliyyətinə geniş yol açılır. Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı, bərpa olunan enerji (su, günəş, külək) və turizm layihələri üçün xarici investorların iştirakı gözlənilir. Bakı–Vaşinqton xəttindəki yaxınlaşma Azərbaycanın enerji təhlükəsizliyi üzrə beynəlxalq danışıqlarda mövqeyini gücləndirir. Sülh və sabitlik reytinq agentliklərinin Azərbaycanın kredit balını artırmasına yol aça bilir. Zəngəzur dəhlizi ilə Azərbaycan–Türkiyə-Mərkəzi Asiya-Çin marşrutları arasında daha effektiv əlaqələr qurulacaq. Bu, logistika xərclərini azaltmaqla yanaşı, daşınma müddətlərini də qısaldır.

***Nəticə***

Beləliklə, bu üç əsas element - zəfər, iqtisadi güc və sülh qarşılıqlı olaraq bir-birini gücləndirir və Azərbaycanın strateji mövqeyini möhkəmləndirir. İlham Əliyevin uzaqgörən siyasəti bu dinamikliyi qoruyur, ölkəmizi həm indiki, həm də gələcək çağırışlara hazırlayır.

Nəticə olaraq, Azərbaycan üçün zəfər yalnız müharibədə qazanılan uğur deyil, həm də həmin uğurun iqtisadi və siyasi gücə çevrilməsi, dayanıqlı sülhün təmin olunmasıdır. Prezident İlham Əliyevin liderliyi bu prosesin hər mərhələsində mühüm rol oynayır, ölkəni daha güclü və firavan gələcəyə aparır.

# Dövlət büdcəsinin xərcləri 10 milyard manatı ötüb



Dövlət xərcləri məcmu daxili tələbin dəstəklənməsində müsbət rol oynayıb.

Trend Mərkəzi Banka istinadən xəbər verir ki, ümumi xərclər ötən ilin eyni dövrünə nisbətən 6.5% artaraq 17.1 milyard manat, dövlət büdcəsinin cari xərcləri isə ötənilki göstərici ilə müqayisədə 7.5% artaraq 10.6 milyard manat təşkil edib.

Dövlət büdcəsi xərclərinin 61.8%-i cari xərclərə, 32.2%-i əsaslı xərclərə, 6%-i dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldilib.

2025-ci ilin I yarısında sosial müdafiə və sosial təminat xərcləri proqnoza qarşı 110.9% və ya 2.2 milyard manat səviyyəsində icra edilib.

# Türkiyəyə birbaşa xarici investisiyaların həcminə görə Azərbaycan liderdir

Azərbaycan 2025-ci ilin birinci yarısında Türkiyə iqtisadiyyatına ən çox birbaşa xarici investisiya yatıran ölkələr sırasındadır.

Bu barədə Türkiyə Prezident Administrasiyasının İnvestisiya və Maliyyə İdarəsinin rəhbəri Burak Dadlıoğlunun cari ilin yanvar-iyun ayları üçün qardaş ölkənin iqtisadiyyatına qoyulan investisiyalara dair bəyanatında deyilir. Onun sözlərinə görə, cari ilin ilk 6 ayında Türkiyəyə ən böyük birbaşa xarici investisiya Niderlanddan daxil olub. Sonrakı yerlərdə Qazaxıstan, ABŞ, Almaniya və Azərbaycan qərarlaşıb.***“İlin birinci yarısında Türkiyəyə ümumilikdə 6,3 milyard dollar birbaşa xarici investisiya yatırılıb ki, bu da ötən ilin yanvar-iyun ayları ilə müqayisədə 27,1% çoxdur. Bu, investorların hökumətin iqtisadi proqramına inamının daha bir sübutudur”,*** - deyə Türkiyə Prezident Administrasiyasının nümayəndəsi qeyd edib.

Türkiyə Xarici İnvestorlar Dərnəyinin (YASED) məlumatına görə, 2025-ci ilin yanvar-iyun aylarında bu ölkənin iqtisadiyyatına birbaşa xarici investisiyaların 5%-i Azərbaycanın payına düşüb.

Ümumilikdə, 2002-ci ildən bu günə qədər Türkiyə iqtisadiyyatına 281 milyard birbaşa xarici investisiya yatırılıb.

# Mərkəzi Bank Azərbaycanın inflyasiya proqnozlarını yeniləyib

İyul proqnozlarına əsasən 2025 və 2026-cı illərdə illik inflyasiyanın hədəf diapazonu daxilində (4±2%) qalacağı proqnozlaşdırılır.
Trend AMB-yə istinadən xəbər verir ki, iyul proqnozuna görə inflyasiya 2025-ci ildə 5.7% təşkil edəcək.
Bildirilib ki, 2025-ci ilin illik inflyasiya proqnozuna dövlət istehlakı 0.50 faiz bəndi, ev təsərrüfatlarının istehlakı 1.26 faiz bəndi, kənd təsərrüfatı istehsalçıları qiymətləri (KİQİ) 3.17 faiz bəndi, ticarət tərəfdaşlarında inflyasiya 2.78 faiz bəndi artırıcı təsir edəcək. NEM-in -0.70 faiz bəndi və digər amillərin -1.31 faiz bəndi azaldıcı töhfəsi gözlənilir.
Qeyd edilib ki, iyul proqnozuna əsasən 2026-cı ilə inflyasiyanın 5.3% təşkil edəcəyi gözlənilir.
*"2026-cı ilə proqnozlaşdırılan illik inflyasiyaya dövlət istehlakı 0.35 faiz bəndi, ev təsərrüfatlarının istehlakı 1.28 faiz bəndi, KİQİ 2.23 faiz bəndi, ticarət tərəfdaşlarında inflyasiya 1.92 faiz bəndi və digər amillər 1.80 faiz bəndi artırıcı, NEM isə -2.27 faiz bəndi azaldıcı təsir edəcək. Proqnozların reallaşması bir sıra xarici və daxili amillərin dəyişimindən asılı olacaq"*, - məlumatda vurğulanıb.
"Qlobal iqtisadiyyatda geosiyasi gərginliyin yüksək qalması, qlobal fraqmentasiya şəraitində mühüm ticarət marşrutlarında yaranan maneələr və qeyri-müəyyənliyin davam etməsi əmtəə qiymətlərinin yüksəlməsinə və qlobal inflyasiya proseslərinin sürətlənməsi fonunda idxal inflyasiyası vasitəsilə ölkədaxili inflyasiyaya artırıcı təsir göstərməsinə səbəb ola bilər. Eyni zamanda, qlobal iqlim dəyişiklikləri məhsuldarlığa və qlobal ərzaq istehsalına təsir edə bilər. Daxili faktorlardan inflyasiyanı artıra biləcək başlıca risk isə yerli xərc amillərinin və məcmu tələbin izafi artımı ilə əlaqədardır", - məlumatda bildirilib.
Vurğulanıb ki, potensial riskləri nəzərə alaraq ortamüddətli dövrdə büdcə xərclərinin və kreditqoyuluşlarının inflyasiyaya təsirləri xüsusi diqqətdə saxlanılmalıdır.
2025-ci ilin I yarımilliyində inflyasiya gözləntiləri sektorlar üzrə fərqli istiqamətlərdə dəyişib. Mərkəzi Bank tərəfindən həyata keçirilən real sektorun monitorinqinin nəticələrinə əsasən ötən ilin müvafiq dövrünə nisbətən sahələr üzrə gözləntilərdə azalma qeydə alınıb.

# Azərbaycan bankları I yarımildə "Bloomberg"də 41 milyard manatlıq əqd bağlayıb

Bu ilin birinci yarısında banklararası bazarın təminatsız sektorunda aktivlik davam edib.
Trend Mərkəzi Banka istinadən xəbər verir ki, 2025-ci ilin 6 ayında Blumberq ticarət sistemində banklar arasında 41.4 milyard manat məbləğində 2148 ədəd əqd bağlanıb.
Məlumata görə, bu əməliyyatların həcm olaraq 95%-i 1-3 günlük olub. Ötən ilin müvafiq dövrünə nisbətən təminatsız bazarda əqdlərin həcmi 26%, sayı isə 55% artıb.
*"Pul bazarında qısamüddətli faizlər hesabat dövrü ərzində faiz dəhlizinin daxilində hərəkət edib. 2025-ci ilin I yarısında 1 günlük banklararası təminatsız pul bazarında istinad faiz dərəcəsi - AZIR indeksi aylar üzrə dəyişkən olsa da, faiz dəhlizi daxilində - uçot dərəcəsinə yaxın trayektoriyada hərəkət edib. Belə ki, AZIR indeksi ilə uçot faiz dərəcəsi arasındakı spred I rübdə -0.4%, II rübdə isə -0.22% olub. Ümumilikdə, 2025- ci ilin 6 ayında AZIR indeksinin uçot dərəcəsindən standart kənarlaşması 0.29 faiz bəndi olub"*, - deyə məlumatda qeyd edilib.

# Ərəb Koordinasiya Qrupunun nümayəndə heyəti ilə görüş keçirilib



İqtisadiyyat Nazirliyində Ərəb Koordinasiya Qrupuna (ƏKQ) daxil olan İslam İnkişaf Bankı Qrupu, Əbu-Dabi İnkişaf Fondu, Küveyt Ərəb İqtisadi İnkişaf Fondu, Səudiyyə İnkişaf Fondu və Beynəlxalq İnkişaf üzrə OPEC Fondunun ekspertlərindən ibarət nümayəndə heyəti ilə görüş keçirilib.
Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin qrupa daxil olan maliyyə institutları ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulanıb. Azərbaycanda biznesin inkişafı və investisiya qoyuluşları üçün yaradılmış əlverişli işgüzar mühit, potensial investisiya sahələri barədə məlumat verilib.
Nümayəndə heyəti Ərəb Koordinasiya Qrupunun Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini bildirib. 2026-cı ildə İslam İnkişaf Bankı Qrupunun illik toplantılarının Azərbaycanda keçirilməsinin tərəfdaşlığın gücləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib. Görüşdə mövcud işbirliyinin genişləndirilməsi və dövlət zəmanətli investisiya layihələrinin həyata keçirilməsi imkanları müzakirə edilib. Ərəb Koordinasiya Qrupunun dövlət zəmanətli investisiya layihələrinin maliyyələşdirilməsində fəal iştiraka hazır olduğu nəzərə çatdırılıb.

# Naxçıvanda "yaşıl nəqliyyat" dövrü başlayır

Naxçıvan şəhərinin küçələrində yaxın vaxtlarda sakit, ekoloji təmiz və ağıllı avtobuslar hərəkət edəcək.
Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən Trend-ə bildirilib ki, muxtar respublikada nəqliyyat sisteminin təhlükəsizliyinin artırılması, atmosferə atılan tullantıların azaldılması və ekoloji mühitin yaxşılaşdırılması məqsədilə şəhərə 60 ədəd elektrik mühərrikli avtobus gətiriləcək.
Avtobuslar ilkin olaraq sınaq müddətində yoxlanıldıqdan sonra şəhərin ictimai nəqliyyat marşrutlarında istifadəyə veriləcək.
Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 4 mart 2025-ci il tarixli sərəncamına əsasən, Naxçıvan şəhərində sərnişindaşımaların yalnız elektrik mühərrikli avtobuslarla həyata keçirilməsi, enerji doldurma avadanlıqlarının quraşdırılması, həmçinin bu avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə depo (qaraj) infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi çərçivəsində Prezidentin müvafiq fərmanına uyğun olaraq "Baku Bus" MMC-yə 33 milyon 449 min manat vəsait ayrılıb.
Hazırda görülən işlər çərçivəsində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi" PHŞ-nin balansındakı əmlak kompleksinin bir hissəsi qanunvericiliyə uyğun olaraq "Baku Bus" MMC-nin istifadəsinə verilib.
Layihənin cari ilin sonunadək tam başa çatdırılması planlaşdırılır.

# Ana dilində təhsilin inkişafı zəruridir

***Təhsil, xüsusən də orta təhsil ana dilində olmalıdır. Ana dili şəxsiyyətin, millətin və dövlətin formalaşmasında, inkişafında xüsusi rola malikdir.***

> ***"Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək xalq qarşısında qəbahətdir".***
>
> ***Ümummilli lider Heydər Əliyev***

Bunu bütün millətlər, xalqlar və dövlətlər çox yaxşı başa düşür, ona görə də milli təhsillərini dövlət dilində qurublar. Heç Ermənistanda yaşayan erməni təhsilini türkcə, gürcücə, farsca alarmı? Heç ruslar almanca, farslar ərəbcə, ərəblər türkcə, türklər yunanca təhsil alarmı öz vətənlərində? Onlar əcnəbidilli məktəblərinin sayı ilə fəxr edərlərmi? Niyə özümüzə hörmət etmirik?
***"Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, günlərin bir günü dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı, onda millət özüdə batar".***
***(Üzeyir Hacıbəyov).***
***Xalq, dövlət, millət suverenlik əldə etməklə, hələ müstəqillik olmur. Müstəqillik şüurda olmalıdır. Xüsusən xalqın elitasının düşüncəsində olmalıdır. Əgər milli elita öz ailəsində ana dilində danışmırsa, deməli, o ölkə hələ də müstəqil deyil. Yəni, elitası milli ruha malik olmayan xalqın, müstəqilliyi formal olar. «Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün".***
**(Nəriman Nərimanov).**
Bakıda şagirdlərin 20%-nin rus dilində təhsil alması milli və dövlət təhlükəlisizliyi baxımından narahatedici tendensiyadır (bəzi mənbələrdə bu, 34% kimi də göstərilir). Başqa bir ölkənin dilinin təhsil sisteminə belə müdaxiləsi, dövlət dilindəki təhsili tədricən kölgədə qoyması, hesab edirik ki, müstəqilliyə, dövlətçiliyə, milli dirçəlişə, milli ideologiyaya da ciddi təhdiddir. Belə faktlarla xüsusi fəxr etmək isə heç bir halda anlaşılan deyil.
Uşaqlarımız niyə dövlət dilində yox, əcnəbi dildə təhsil almalıdır? Bunu bəziləri fəxr sayırlar. Hesab edirik ki, əcnəbi dilli məktəblər büdcə hesabına yox, ödənişli olmalıdır. Bu, dünyanın hər yerində belədir. Konstitusiyamızda və "Təhsil haqqında" Qanunda da belə qeyd edilib.



***dos. İlham Əhmədov, təhsil üzrə ekspert***

Ana dilimizə ümummilli lider Heydər Əliyev çox yüksək dəyər verirdi. Onun ana dilinə aid bəzi aforizmlərinə diqqət edək: ***"… Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir… Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir… Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır… Gənclərimiz tariximizi, dilimizi, mədəniyyətimizi və dini dəyərlərimizi yaxşı bilməlidirlər."*** Sonuncu fikirdə qeyd edilən keyfiyyətlər məhz ana dilli təhsil vasitəsi ilə aşılana bilər.
Bəziləri deyir ki, rus bölməsində təhsil keyfiyyətlidir. Hesab edirəm ki, bu, səhv fikirdir. Eyni nazirlik, eyni məzmun, eyni dərsliklər, eyni müəllimlər, bəzən eyni müəllim hər iki bölmədə dərs aparır. Bu səbəblərdən də təhsilin keyfiyyətində ciddi fərq ola bilməz. Bəli, sovet vaxtı rus və Azərbaycan bölmələri keyfiyyətcə fərqlənirdi, indi o fərq hiss edilmir, sadəcə rus bölməsində oxuyan uşaqlar çox vaxt maddi cəhətdən imkanlı və təhsilli ailələrdən olurlar, onların əlavə təhsil almaq imkanları daha çox olur.
Rus bölməsinin məzunlarının qəbul imtahanlarında müəyyən üstünlükləri var, məncə, bu, süni olaraq yaradılıb. Azərbaycan dilində resursların azlığından və keyfiyyətsizliyindən də şikayət edirlər. Bu, haqlı şikayətdir. Təhsil Nazirliyi bu problemi həll etməlidir, amma 30 ildir ki, həll edə bilmir.
Əlavə dil bilmək yaxşıdır, amma bu, ana dilinə laqeyd yanaşmağın hesabına olmamalıdır. Şəhərdə çoxlu dil kursları var, kimlər əlavə xarici dil öyrənmək istəsə, bu kurslara yazıla bilərlər. İnternetdə rus və digər əcnəbi dilləri öyrənmək istəyənlər üçün çoxlu pulsuz kitablar, audio, video resurslar var. Hesab edirəm ki, orta səviyyəli şagird öz üzərində işləsə, bu kurslarda 1 ilə danışıq dilini öyrənə bilər.
Əgər valideynlər övladlarını əcnəbi dildə oxutmaq istəyirlərsə, tanınmış rus pedaqoqu Uşinskinin sözlərini unutmasınlar. Belə ki, Uşinski uşaqların ana dilində tərbiyəsi və təhsilinin həyata keçirilməsi üçün inadla mübarizə aparırdı.
**O yazırdı:** "Məktəbdə əcnəbi dildə tədris uşaqların güc və bacarıqlarının təbii inkişafını ləngidir, bu vəziyyət uşaqların və xalqın inkişafı üçün faydasızdır, …ana dili ən böyük milli tərbiyəçidir". Daha sonra o yazırdı: ***"Ana dili bilik öyrəndiyimiz və onu gələcək nəsillərə ötürdüyümüz yeganə vasitədir".***
O, ana dilini mənimsəməyi ibtidai təhsilin əsas vəzifəsi hesab edirdi. Uşinskinin fikrincə, məktəbdə ana dili, "bütün başqa fənlərin nəticələrini özünə hopduran əsas fənni olmalıdır".
Pedaqoq hesab edirdi ki, "uşaq kiçik yaşlarından xalq mədəniyyətinin elementlərini mənimsəməyə ana dilini öyrənməklə başlayır".
Biz qloballaşma dövründə milli kimliyimizi qorumaq üçün ana dilli təhsilimizi inkişaf etdirməli, onu rəbabətədavamlı etməliyik.

# "AzerGold" QSC-də korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə seminarı keçirilib

"AzerGold" QSC-də Səhmdar Cəmiyyətinin əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizə üzrə uyğunluğun təmin edilməsi" mövzusunda maarifləndirmə seminarı keçirilib.
Seminar "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində təşkil olunub. Antikorrupsiya davranış modelinin formalaşdırılması və bu sahədə savadlılığın artırılması, korrupsiyaya qarşı dözümsüzlüyün gücləndirilməsi məqsədilə keçirilən seminarda Cəmiyyətin aparatında çalışan və bütün struktur bölmələri təmsil edən əməkdaşlar iştirak edib.
Seminar zamanı təlimçilər tərəfindən "AzerGold" QSC-nin Korrupsiyaya qarşı mübarizəyə dair siyasəti əməkdaşların diqqətinə çatdırılıb, eləcə də korrupsiyanın mənfi təsirləri, onunla mübarizənin vacibliyi və effektiv üsulları barədə ətraflı məlumatlar verilib, yerli və beynəlxalq təcrübələrə əsaslanan nümunələr əsasında müzakirələr aparılıb. Seminar çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində məlumatlılığın artırılması və maarifləndirmə tədbirlərinin səmərəliliyinin yüksəldilməsi məqsədilə görülən işlərdən bəhs olunub, gələcəkdə icrası nəzərdə tutulan tədbirlər haqqında danışılıb. Sonda əməkdaşları maraqlandıran suallar cavablandırılıb, seminar sual-cavab formatında davam etdirilib.




Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 04 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsinə şərait yaradır. Eyni zamanda, Milli Fəaliyyət Planında əks etdirilmiş kompleks tədbirlərin icrası ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi, dövlət qurumların fəaliyyətində şəffaflığın artırılmasına və korrupsiyanın ifşa edilməsində effektiv nəzarət mexanizmlərin tətbiqinə xidmət edir.

# "AzerGold" QSC və onun törəmə şirkətlərinin ötən ilin yekunlarına dair maliyyə nəticələri açıqlanıb

"AzerGold" QSC-nin və onun törəmə şirkətləri - "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-nin 2024-cü ilin yekunlarına dair maliyyə hesabatları açıqlanıb.
Beynəlxalq nüfuzlu müstəqil auditor şirkəti - "PricewaterhouseCoopers" tərəfindən aparılan maliyyə yoxlamaları nəticəsində müsbət auditor rəy verilən maliyyə hesabatlarına əsasən Səhmdar Cəmiyyətin və onun törəmə şirkətlərinin birgə maliyyə nəticələrində pozitiv tendensiyalar qeydə alınıb.
Ötən ili də yüksək gəlir və mənfəətlə başa vuran Cəmiyyət bütün göstəricilər üzrə mövqeyini daha da möhkəmləndirib.
Ümumilikdə, 2023-cü illə müqayisədə satış gəlirləri 2024-cü ildə 35% artaraq 182.69 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Hesabat ilində qiymətlilərin satış həcmi 9% artaraq, 70.5 min unsiya qızıl və 97.5 min unsiya gümüş təşkil edib. 2024-cü ildə istehsalat həcmi və satış gəlirlərinin artması nəticəsində "AzerGold" QSC və onun törəmə şirkətlərinin əməliyyat mənfəətini xarakterizə edən EBITDA göstəricisi 27.5% artaraq 89.88 milyon ABŞ dolları səviyyəsində qeydə alınıb. Nəticədə xalis mənfəət 2023-cü illə müqayisədə hesabat ilində 21.3% artaraq 33.02 milyon ABŞ dolları təşkil edib.
Səhmdar Cəmiyyətin 2024-cü il üzrə ümumi aktivlərinin dəyəri 488.35 milyon ABŞ dolları təşkil edib, bu əvvəlki ilin analoji göstəricisi ilə müqayisədə 4.3% artıma bərabərdir.
Həmçinin "AzerGold" QSC və onun törəmə şirkətlərinin 2024-cü ildə xalis dövriyyə kapitalı 3.1% artaraq 105.22 milyon ABŞ dolları, ümumi kapitalı 26% artaraq 399.78 milyon ABŞ dolları təşkil edib.
"AzerGold" QSC və onun törəmə şirkətlərinin 2024-cü il üzrə göstəriciləri dövlət şirkətinin və onun törəmə şirkətlərində yüksək maliyyə dayanıqlığının mövcudluğunu təsdiqləyir.
2024-cü il üzrə konsolidə edilmiş maliyyə nəticələri ilə ətraflı tanış olmaq üçün linkə keçid edə bilərsiniz.

# Elçin İlyas oğlu Əfəndiyev



Azərbaycanın mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış dramaturq, tənqidçi və ədəbiyyatşünas, ictimai-siyasi xadim, filologiya elmləri doktoru professor, Elçin İlyas oğlu Əfəndiyev 2025-ci il avqustun 3-də ömrünün 83-cü ilində vəfat etmişdir.

Elçin Əfəndiyev 1943-cü il mayın 13-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1960-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil almış, 1965-1969-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda elmi əməkdaş kimi başlayan Elçin Əfəndiyev 1969-1975-ci illərdə orada işləmişdir. O, 1975-1987-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi, 1987-1993-cü illərdə isə Xaricdə yaşayan həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti – "Vətən" Cəmiyyəti rəyasət heyətinin sədri olmuşdur. Elçin Əfəndiyev 1993-2018-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışmışdır.

Müasir Azərbaycan ədəbiyyatının parlaq simalarından olan yazıçı Elçin Əfəndiyev bütün fəaliyyəti ərzində 60-cı illər nəslinin ənənələrinə sadiqlik nümayiş etdirmiş və milli bədii fikrin zənginləşməsində mühüm rol oynamışdır. O, hələ ədəbi yaradıcılığa başladığı ilk vaxtlardan mənəvi axtarışlarla dolu əsərlərinin poetik gücü ilə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Realist psixoloji təhlilin dərinliyi və bədii-estetik ifadə vasitələrinin rəngarəngliyi ilə seçilən bu əsərlər Azərbaycan nəsrinin qiymətli nümunələridir.

Ədəbiyyatımızın yeni mərhələsinin formalaşmasının fəal iştirakçısı olan sənətkar uzaq və yaxın tarixi keçmişimizlə bağlı roman, povest, hekayə və pyeslərində xalqımızın mənəvi-əxlaqi dəyərlərinin təbliğini diqqət mərkəzində saxlamışdır. Elçinin ssenariləri əsasında çəkilən filmlər uğurlu ekran həyatı yaşayaraq Azərbaycan kinematoqrafiyasının qızıl fonduna daxil olmuşdur. Yazıçının əsərləri bir çox xarici dillərə tərcümə olunmuş, müxtəlif teatr səhnələrində tamaşaya qoyularaq müəllifinə şöhrət qazandırmışdır. Onun mötəbər beynəlxalq konfranslarda çıxışları elmi və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Elçin Əfəndiyev ölkəmizin ictimai-siyasi və mədəni həyatında daim yaxından iştirak etmişdir. Xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin dərinləşməsində xidmətləri onun azərbaycançılıq məfkurəsinə sədaqətinin bariz ifadəsidir. Elçin Əfəndiyev uzun illər Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində təqdirəlayiq fəaliyyət göstərmişdir. Elçin Əfəndiyevin xidmətləri həmişə yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının ali dövlət mükafatları – "İstiqlal" (2003), "Şərəf" (2013), "Şöhrət" (2018) ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" (2023) ilə təltif edilmişdir.

Görkəmli yazıçı və alim, tanınmış ictimai-siyasi xadim, səmimi və təvazökar insan Elçin İlyas oğlu Əfəndiyevin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Sahibə Qafarova, Samir Nuriyev, Eldar Əzizov, Fərəh Əliyeva, Adil Kərimli, Polad Bülbüloğlu, İsa Həbibbəyli, Anar Rzayev, Nəriman Həsənzadə, Kamal Abdullayev, Çingiz Abdullayev, Hacı İsmayılov.**

*"Elçin bizim böyük yazıçılarımızdan biridir".*

**Ulu öndər Heydər Əliyev**

## Görkəmli yazıçı, ictimai-siyasi xadim

Görkəmli yazıçı, nasir, dramaturq, tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xalq yazıçısı, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, "İstiqlal" ordenli ictimai-siyasi xadim Elçin İlyas oğlu Əfəndiyev milli ədəbiyyatımızı layiqincə təmsil edən ən tanınmış simalardan biri idi.

Onun nəsr əsərləri, hekayə və povestləri onlarla xarici ölkədə tərcümə edilərək nəşr olunub, Azərbaycan ədəbiyyatının beynəlxalq səviyyədə təbliğində mühüm rol oynayıb.

Elçin Əfəndiyev yalnız yazıçı kimi deyil, həm də ictimai-siyasi xadim kimi Azərbaycan dövlətçiliyinin və mədəniyyətinin inkişafında böyük xidmətlər göstərib.

O, Azərbaycan ədəbiyyatında və mədəniyyətində müstəsna xidmətlərinə görə "İstiqlal" ordeni və digər yüksək dövlət mükafatları ilə təltif olunub.

Görkəmli yazıçı, ictimai-siyasi xadim Elçin Əfəndiyevin yaradıcılığı Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək, onun əziz xatirəsi dostlarının qəlbində daim yaşayacaq.

**Akademik Ziyad Səmədzadə**



*"Bu il Beynəlxalq İncəsənət Mükafatını qardaş Azərbaycanın görkəmli yazıçısı Elçin İlyas oğlu Əfəndiyevə təqdim edirik. Bir çox dilə tərcümə edilmiş hekayə, roman və ssenari janrlı əsərləri ilə könüllərdə taxt quran Elçin qardaşımız, eyni zamanda, bir siyasət və fəaliyyət adamı olaraq da gözə çarpmışdır. Türkiyə-Azərbaycan dostluğunun dünyada öz səmimiyyəti, həmrəyliyi, mehribanlığı ilə nümunə göstərildiyi bir vaxtda verdiyimiz bu mükafatı mən də mənalı hesab edirəm. İnanıram ki, Elçin qardaşımız öz əsərləri və duruşu ilə bundan sonra da bu dostluğun mədəni və elmi bayraqdarlarından biri olmağı davam etdirəcək, onu təbrik edirəm".*

**Rəcəb Tayyib Ərdoğan,
Türkiyə Respublikasının Prezidenti**

*"Siz uzun illər Heydər Əliyevlə birlikdə yüksək vəzifələrdə işləmisiniz. Bilirsiniz ki, onun sizə münasibəti çox müsbət olubdur, böyük hörmətlə yanaşırdı. Artıq bir ildən çoxdur ki, biz birlikdə işləyirik. Mən bu birgə fəaliyyətimizdən çox razıyam. Həm hökumətdə, həm də ictimai həyatda sizin böyük rolunuz vardır. Bu gün böyük məmnuniyyətlə yüksək mükafatları sizə təqdim etmək istəyirəm".*

**İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti**

* * *

*"Elçin hekayə və povestlərində daim insan hisslərinin hərarətini, insan ürəyinin romantik çırpıntılarını əks edir; çünki yazıçı onları təsvir xatirinə deyil, qəhrəmanlarının həyəcan və iztirablarının, daxili hisslərinin tərcümanı kimi əsərə daxil edir. Bu təsvirlərin yığcamlığı və təbiiliyi bizi o qədər cəlb edir ki, gözlənilmədən özümüzü başqa aləmdə hiss edirik".*

**Mirzə İbrahimov,
xalq yazıçısı**

*"Elçinin ədəbi hadisələrə obyektiv yanaşması, yeri düşdükcə kəskin polemikalara girməsi, işin ağırlığından qorxmaması, mühüm elmi-bədii problemlərə nəzəri əsaslarla yanaşması əsərinin ("Tənqid və nəsr") sanbalını xeyli artırmış, bu əsəri ləyaqətli bir tədqiqata çevirmişdir".*

**Əməkdar elm xadimi, yazıçı,
Mir Cəlal Paşayev**

* * *

*"Hörmətli Elçin! "Ölüm hökmü" romanını həvəslə, amma tələsmədən hər mətləbi, hər eyhamı içə-içə, ağıl və hiss süzgəcindən keçirə-keçirə oxudum. Yaşadığım acı illəri, qorxu və təlaş dolu illəri yenidən yaşadım və dərhal sənin yaşını düşünüb heyrətləndim. Sən o illərin müsibətlərini o qədər təbii qələmə almısan ki, bunlar özündən yaşlıların söhbətlərindən deyil, yalnız şəxsi müşahidənin məhsulu ola bilər - qənaətinə gəlmək olmur... Sən məni qələminlə bir daha istedadın gücünə və sənətin qüdrətinə inandırdın".*

**Bəxtiyar Vahabzadə,
xalq şairi**

* * *

*"Elçin müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Bədii yaradıcılıq sahəsində onun nəaliyyətləri göz qabağındadır... Elçin tənqidi fəaliyyətə də yazıçı kimi başlamışdır. Onun tənqidi əsərləri öz canlılığı, kəsəri, aktuallığı ilə həmişə ümumi maraq oyatmışdır".*

**Kamal Talıbzadə, akademik**

* * *

*"Elçin müasir Türkiyə ədəbiyyatından və ədəbi prosesdən bəhs edərkən belə bir fikri əsas götürür ki, ədəbiyyat dövrün mühüm siyasi-ictimai problemlərindən kənarda qalmamalı, həmişə öz xalqının ictimai marağı keşiyində dayanmalıdır, bilavasitə həyatdan bəhrələnməlidir. O, qabaqcıl dünya ədəbiyyatından faydalanmaqla birlikdə, milli ədəbi ənənələrinə arxalanmalıdır... Elçin "Yaxın, uzaq Türkiyə" əsərində özünü işgüzar bir təşviqatçı kimi göstərir".*

**Həmid Araslı, akademik**

*"Həyatın acı həqiqətlərindən danışanda da şirin, səmimi, xeyirxah dillə danışmaq ancaq sinəsində şəfqətli sənətkar ürəyi gəzdirənlərə qismət olur ki, Elçin də onların cərgəsindədir".*

**Əziz Mirəhmədov,
AMEA-nın müxbir üzvü, professor**

* * *

*"Elçinin məşhur "Ölüm hökmü" romanı Azərbaycanın düşmənlərinə ölüm hökmü oxuyursa, o böyük epik əsər həm də keyfiyyətcə parlayırsa, siz nə cəsarətlə (müasir ədəbiyyata) ölü deyirsiniz?!"*

**İsa Hüseynov (Muğanna),
yazıçı, ssenarist**

* * *

*"Mənim bir neçə yaxın dostum var, hamısı mənə əzizdir, onları heç vəchlə bir-birinə qarşı qoymaq istəməzdim. Amma atamın vəfatı günündə də, anamın keçindiyi gecədə də yadıma ilk düşən Elçin oldu".*

**Anar, xalq yazıçısı**

* * *

*"Elçin dünya ədəbiyyatı dəyərlərini, bu sahədəki təcrübəni mükəmməl şəkildə öz yaradıcılıq laboratoriyasından uğurla keçirən çox maraqlı bir yazıçıdır... Rejissor Devid Perri "Şekspir" pyesini oxuyub, ona valeh olmuşdu. Onun quruluşunda əsər Londonun Avanqrad teatrında müvəffəqiyyətlə tamaşaya qoyuldu. Elçinin yaşanmış tarixə ironik, paradoksal şəkildə təqdim edilən münasibəti ingilis tamaşaçıları üçün çox maraqlı idi".*

**İan Piertdi,
ingilis ədəbiyyatşünası**

* * *

*"Elçin möcüzələri sevir, o zərif və mehriban nağılçıdır, o kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir..."*

**Professor Lev Anninski
rus tənqidçisi**

* * *

*"Elçin - dramaturgiyamızda ilk dəfə olaraq xaosun, hərcmərcliyin obrazını yaradır! Onların əsasında duran mənəvi, əxlaqi, ideoloji stereotipə, normativ düşüncə və rəftar tərzinə ən müasir, ayıq ədəbi-estetik münasibət ifadə edir...".*

**Yaşar Qarayev,
AMEA-nın müxbir üzvü**

* * *

*"...Elçinin ümumittifaq mətbuatında çap olunmuş ən yaxşı məqalələri bir yerə toplanaraq, Moskvada böyük bir kitab halında nəşr edilmişdir. İlk dəfə idi ki, Azərbaycan ədəbi tənqidinin nümunəsi Elçinin tənqidi yaradıcılığı timsalında belə bir həcmdə və yüksək nəzəri səviyyədə ümumittifaq oxucusuna təqdim olunurdu".*

**Nərgiz Paşayeva, akademik**

* * *

*"Elçin ədəbi-tənqid məqalələri ədəbi-bədii fakta analitik münasibət nümunəsidir, mən bunu bütün məsuliyyəti ilə deyirəm, bu məqalələrdə təhlilin sosial planı da var, zaman həssaslığı da; milli əyanilik də var, fərdi üslub faktına ehtiram da; nəhayət müəllifin öz təbiri ilə desək, iddia da var, imkan da. Şübhəsiz bunların hamısından çox bir şey var, onu böyük hərflərlə yazıram: VƏTƏNDAŞLIQ!.."*

**Nizami Cəfərov, akademik**

* * *

*"Elçin haqqında çox yazılıb. Sözsüz ki, bunlar nə ayrı-ayrılıqda, nə də cəm şəklində onun yaradıcılığının bütün şaxələrini və çalarlarını əhatə etmir. Elçinin yaradıcılığı elə geniş diapozonludur ki, yəqin heç mümkün də deyil... Onun "Ədəbi düşüncələr"i bədii aysberqlərin görünməyən hissəsini duymağın yollarını öyrədir".*

**Həsən Əziz oğlu
Həsənov Dövlət xadimi**

* * *

*"Elçin Azərbaycan ədəbiyyatını dünyada təmsil edən şəxsiyyətdir. O, çoxsaylı əsərləri ilə oxucuların qəlbini çoxdan fəth edib... O, Azərbaycan ədəbiyyatından Ədəbiyyata sıçrayış etməyi bacarmış bir sənətkardır. Adı Azərbaycan ziyalılığının qızıl fonduna düşmüş bir sənətkardır".*

**Kamal Abdulla,
akademik,**

## Elçin dünyası



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq yazıçısı Elçinə "İstiqlal" ordenini və "Xalq yazıçısı" fəxri adının vəsiqəsini təqdim edərkən.*

Qəzetimizin səhifələrində müxtəlif illərdə Elçinin yaradıcılığına həsr olunmuş məqalələr dərc olunmuşdur. Onlardan birini – tarix elmləri doktoru Bəybala Ələsgərovun məqaləsini ixtisarla nəzərinizə çatdırırıq.

Elçin Əfəndiyev bədii yaradıcılığa lap erkən yaşlarından başlamışdır. İlk hekayəsi ("O inanırdı") 1959-cu ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Elçinin məşhur "Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hökmü" romanları Azərbaycan nəsrinin qızıl fonduna daxil olmuşdur.

Elçin müxtəlif millətlərdən ibarət milyonlarla oxucu auditoriyasının sevimli yazıçısıdır. Onun "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça" kimi povestləri yalnız Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində nəşr olunmuş, oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Təsadüfi deyil ki, bu povestlər keçmiş Sovet İttifaqının ən populyar və çoxtirajlı jurnallarında dərc edilmişdir. Onun əsərləri bir çox ədəbi mükafatlar, o cümlədən SSRİ Yazıçılar İttifaqının, "Drujba narodov" və "Smena" jurnallarının (iki dəfə), "Literaturnaya qazeta"nın (iki dəfə), "Nedelya" həftəliyinin və digər mətbuat orqanlarının "İlin ən yaxşı əsəri" mükafatlarını almış, Moskvada nəşr olunmuş "Əncir ağacı" adlı povest və hekayələr kitabı keçmiş SSRİ-nin ən nüfuzlu mükafatlarından biri – Lenin komsomolu mükafatı, "Memar Sinan" Universitetinin (İstanbul), Fateh Universitetinin (İstanbul) mükafatları, eləcə də ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə "İstiqlal", Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə isə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Elçinin dramaturgiyası, son illərdə qələmə aldığı komediyalar Azərbaycan komedioqrafiyasını keyfiyyətcə yeni bir mərhələyə qaldırmış və milli sənətimizdə bədii-estetik hadisə olaraq "Elçin teatrı"nı yaratmışdır. Onun "Poçt şöbəsində xəyal", "Ah, Paris!.. Paris!..", "Mən sənin dayınam", "Dəlixanadan dəli qaçıb, yaxud mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Qatil", "Şekspir" və s. kimi pyesləri yalnız Azərbaycanın deyil, xarici ölkələrin, o cümlədən Türkiyənin ən böyük teatrlarında uğurla səhnəyə qoyulmuşdur. "Qatil" tamaşasının quruluşçu rejissoru Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə, bəstəkarı Xalq artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aygün Səmədzadədir.

Elçinin "Tənqid və nəsr", "Klassik aşıq ədəbiyyatında "dünya" obrazı", Üzeyir Hacıbəyovun publisistikasını tədqiq və təhlil edən "Bəstəkarın vətəndaş sözü" monoqrafiyaları, eləcə də Azərbaycanın böyük şəxsiyyətlərinə – Bülbülə həsr edilmiş "Bülbül", Azərbaycan Demokratik Cümhuriyyətinin lideri Məmməd Əmin Rəsulzadənin həyat və yaradıcılığından bəhs edən "Məmməd Əmin Rəsulzadə", yazıçı, siyasi-ictimai xadim Nəriman Nərimanovun yaradıcılığını və fəaliyyətini işıqlandıran "Nəriman Nərimanov", Cəfər Cabbarlının yaradıcılığını yeni aspektdən təhlil edən "Sənətkar və şəxsiyyət" monoqrafik oçerkləri və s. kimi elmi əsərləri Azərbaycan ədəbiyyatşünaslıq elminin son onillərdə əldə etdiyi nailiyyətlərin parlaq nümunələridir.

**"İqtisadiyyat" qəzeti,
7-15 mart 2023**

Tibbdə PR

# Empatiya əsasında PR: Auditoriya ilə emosional bağ qurmaq dövrü

*(əvvəli ötən sayımızda)*

Empatiya ilə təqdim olunan həkim tövsiyələrindən nümunələr:

• "Dənizə gedərkən uşaqlarınızın dərisi üçün gün qoruyucu kremləri yalnız müdafiə üçün deyil, onların rahatlığı üçün istifadə edin – çünki onlar bunu hiss edir."

- Texniki tövsiyə emosional mesajla tamamlanır. Bu, empatiyanın əsas göstəricisidir.

• "Şəkərli diabetlə yaşamaq mümkündür. Sizi qorxutmaq üçün yox, yaşamağı asanlaşdırmaq üçün buradayıq."

- Bu cür ifadə xəstə və ailəsi ilə səmimi bir körpü yaradır.

• "Ailə üzvlərinizdən biri onkoloji xəstəliklə mübarizə aparırsa, onun tək olmadığını, dəstək və ümidin mümkün olduğunu hər gün hiss etdirin."

- Bu cür mesajlar yalnız tibbi deyil, emosional bərpa gücü də verir.

***Empatiya əsaslı PR strategiyasının əsas elementləri***

**1. Dinləmək:** Sadəcə cavab vermək üçün yox, anlamaq üçün dinləmək.

Effektiv PR-in təməli auditoriyanı diqqətlə dinləməkdən başlayır. Burada məqsəd təkcə verilən suallara cavab vermək deyil, insanların narahatlıqlarını, ehtiyaclarını, duyğularını və düşüncələrini dərinliklə anlamaqdır. Dinləmək həm real rəyləri toplamaq, həm də problemlərin kökünü tapmaq üçün vacibdir. Bu mərhələdə empatiya hissi önə çıxır — auditoriyanın mövqeyini anlamaq və onların baxış bucağını qəbul etmək.

**2. Şəffaflıq:** Problemi gizlətmək yox, dürüst şəkildə qəbul etmək.

Empatiya əsaslı PR-də şəffaflıq çox böyük əhəmiyyət daşıyır. Problemlərin, səhvlərin və ya çətinliklərin gizlədilməsi və ya ört-basdır edilməsi brendə və təşkilata uzunmüddətli zərər verir. Əksinə, açıq və dürüst şəkildə yaranmış vəziyyəti qəbul etmək, məsuliyyəti üzərindən atmaq yox, həll yolunu göstərmək ictimaiyyətin hörmətini qazanır. Şəffaflıq həm də brendin insan kimi qəbul olunmasını və səmimiyyətin artırılmasını təmin edir.

**3. Səmimiyyət:** Robot kimi yazılmış mesajlar yox, real, insan dilində danışmaq.

Auditoriya süni, standart və şablon ifadələri asanlıqla ayırd edir və onlara inanmır. Empatiya əsaslı PR üçün mesajların səmimi, anlayışlı və insani olması vacibdir. Bu, söhbət tərzində, sadə və təsirli ifadələrlə, auditoriyanın gündəlik dilinə yaxın formada həyata keçirilir. Belə ünsiyyət qurmaq insanlarda daha böyük etibar və yaxınlıq hissi yaradır.

**4. Çevik reaksiya:** Gecikmiş və süni bəyanatlar yerinə, zamanında və uyğun dildə reaksiya vermək



*Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi*

Müasir dünyada informasiya çox sürətlə yayılır və sosial media platformalarında hadisələr anında geniş rezonans doğurur. Bu şəraitdə PR mütəxəssisləri auditoriyanın gözləntilərinə gecikmədən, həssaslıqla və uyğun tərzdə cavab verməlidir. Gecikmiş, suni və məcburi görünən açıqlamalar əks təsir yarada bilər. Çevik və empatiya dolu reaksiyalar isə auditoriyanın hörmətini və brendə bağlılığını artırır.

**5. Dəyər əsaslı ünsiyyət:** Brendin sosial məsuliyyətini və insani dəyərlərini ön plana çıxarmaq.

Empatiya əsaslı PR sadəcə brendin məhsul və xidmətlərini təqdim etməklə kifayətlənmir. O, brendin cəmiyyət qarşısında sosial məsuliyyətini, insan haqlarına və ətraf mühitə hörmətini göstərməsini tələb edir. Brendin insanlara və cəmiyyətə verdiyi dəyərləri açıq şəkildə ifadə etmək, sosial layihələrə dəstək olmaq, faydalı və maarifləndirici kampaniyalar həyata keçirmək — bütün bunlar dəyər əsaslı ünsiyyətin tərkib hissələridir. Bu yanaşma auditoriyada brendə qarşı emosional bağlılıq və dərin hörmət formalaşdırır.

***Empatiya yalnız brendə dəyişiklik etmir, eyni zamanda cəmiyyətə də faydalar gətirir***

Empatiya əsaslı yanaşma təkcə brendlərin və təşkilatların uğur qazanmasına xidmət etmir, həm də bütövlükdə cəmiyyətin rifahına, harmoniya və qarşılıqlı anlaşmaya böyük töhfə verir. Bu səbəbdən empatiya həm mikro səviyyədə — fərdi və biznes müstəvisində, həm də makro səviyyədə — sosial və ictimai sahədə müsbət dəyişikliklər yaradır.

**1. Brend və cəmiyyət arasında güclü və sağlam münasibətlər yaradır**

Empatiya ilə hərəkət edən brendlər auditoriyasının ehtiyaclarını, hisslərini və dəyərlərini anlayır və onlarla həqiqi dialoq qurur. Bu, sadəcə biznes maraqlarını deyil, həm də cəmiyyətin rifahını nəzərə alan bir yanaşmadır. Nəticədə, brend ilə ictimaiyyət arasında qarşılıqlı hörmət və güvən yaranır, sosial bağlar möhkəmlənir.

**2. Sosial məsuliyyəti təşviq edir və icmanın problemlərinə həssaslıq yaradır.**

Empatiya əsaslı PR strategiyaları brendin yalnız mənfəət əldə etməyi deyil, eyni zamanda cəmiyyətin problemlərinə həssas yanaşmasını tələb edir. Məsələn, ətraf mühitin qorunması, sağlamlıq məsələləri, sosial ədalət və inklüzivlik kimi mövzulara diqqət yetirən kampaniyalar, cəmiyyətin bu sahələrdə məlumatlanmasına və aktiv olmasına stimul verir.

**3. İnsanları birləşdirir və anlayışı artırır.**

Empatiya müxtəlif sosial qruplar, fərqli mədəniyyətlər və baxışlar arasında körpü rolunu oynayır. Empatiya ilə yanaşan brendlər və təşkilatlar cəmiyyətdə qarşılıqlı hörmət və tolerantlığı təşviq edir. Bu, cəmiyyətin daha inkluziv və harmonik mühitdə yaşamasına şərait yaradır.

**4. Psixoloji və emosional rifaha müsbət təsir göstərir.**

Empatiya, həm brend daxilində, həm də onun auditoriyası arasında emosional dəstək və anlayış mühiti yaradır. İnsanlar özünü dəyərli və başa düşülmüş hiss etdikdə, onların psixoloji sağlamlığı və ümumi həyat keyfiyyəti yüksəlir. Bu isə cəmiyyətin ümumi sosial sağlamlığına müsbət təsir edir.

**5. Uzunmüddətli sosial faydalar və davamlı inkişaf üçün zəmin yaradır.**

Empatiya ilə idarə olunan brendlər yalnız qısa müddətli uğur əldə etmirlər, eyni zamanda cəmiyyətdə davamlı, müsbət dəyişikliklərə dəstək olurlar. Onlar sosial təşəbbüslərə, humanitar layihələrə və təhsil proqramlarına investisiya qoyaraq daha geniş ictimai fayda yaradırlar. Bu, cəmiyyətin ümumi inkişafına və daha yaxşı gələcəyin qurulmasına xidmət edir.

***Empatiya əsasında qurulan PR fəaliyyəti müasir dövrün informasiya gurultusunda insani səsi ucaldan bir ünsiyyət yoludur. Bu yanaşma ilə çalışan mütəxəssis təkcə diqqət çəkmir – etibar, loyal auditoriya və uzunmüddətli əlaqə qazanır.***

# "AzerGold" növbəti Təqaüd proqramını elan edir




"AzerGold" QSC dağ-mədən sahəsi üzrə təhsil alan ali məktəb tələbələri üçün növbəti "Təqaüd proqramı" müsabiqəsini elan edir. Səhmdar Cəmiyyətin strateji layihələrinin vaxtında və lazımi kadrlar ilə təmin edilməsi məqsədi ilə təsis edilən təqaüd Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri arasında keçiriləcək müsabiqə əsasında təqdim olunacaq. Müsabiqədə 2025-2026-cı tədris ili üzrə bakalavr və magistr səviyyəsinin sonuncu kursunda dağ-mədən mühəndisliyi, geologiya, ekologiya və metallurgiya mühəndisliyi sahələri üzrə əyani təhsil alan, Azərbaycan vətəndaşı olan tələbələr iştirak edə bilərlər. Müsabiqə iki – test imtahanı və müsahibə mərhələsindən ibarətdir.

Cəmiyyətin Təqaüd komissiyası tərəfindən aparılan qiymətləndirmə zamanı test imtahanında ən çox bal toplayan 20 namizəd müsahibəyə buraxılacaq. Növbəti mərhələdə hər bir namizədin hazırlığı müvafiq qiymətləndirmə meyarlarına uyğun olaraq müəyyən ediləcək. Yekunda müsabiqəni uğurla keçən 10 nəfər tələbə təqaüd proqramına cəlb edilərək, hər biri müvafiq təltifnamə və tədris ili müddətində, hər ay 200 AZN məbləğində təqaüd əldə edəcək. Proqramda iştirak edən tələbələrin Səhmdar Cəmiyyətdə təcrübə proqramlarında iştirakı və məzun olduqdan sonra tələblərə uyğun müvafiq vəzifələr üzrə işlə təmin edilməsi nəzərdə tutulur.

"Təqaüd proqramı" layihəsi və müsabiqənin şərtləri ilə ətraflı tanış olmaq üçün "AzerGold" QSC-nin rəsmi veb-saytında "Karyera" bölməsində yaradılmış "Təqaüd proqramı" altbölməsinə daxil ola bilərsiniz. Müsabiqədə iştirak etmək üçün sözügedən altbölmədəki müraciət formasını doldurmaq tələb olunur. Müsabiqəyə elan dərc edildiyi gündən (11 avqust 2025-ci il) start verilir. Müraciət üçün son tarix 30 avqust 2025-ci ildir.

# Dəniz havasının sinir sisteminə möcüzəvi təsiri

***Yay aylarında dəniz sahillərində vaxt keçirmək sadəcə istirahət deyil, həm də sağlamlıq baxımından mühüm bir fürsətdir. Xüsusilə, nevroloji sistem üçün dəniz havasının müalicəvi və dəstəkləyici rolu az qala təbiətin müalicəsidir. Dəniz havasının insan psixikasına və beyin fəaliyyətinə necə təsir etdiyi, stress və yuxusuzluq kimi müasir dövrün problemlərində hansı rolu oynadığı barədə daha ətraflı məlumat almaq üçün Mərkəzi Gömrük Hospitalının təcrübəli nevroloqu Mənsumə Talıbovaya müraciət etdik.***

**– Mənsumə həkim, yay aylarında insanlar dəniz sahillərində istirahət etməyə üstünlük verirlər. Nevroloji baxımdan dəniz havası orqanizmə necə təsir edir?**

– Dəniz havasının insan sağlamlığı, xüsusilə də sinir sistemi üzərində göstərdiyi təsir olduqca əhəmiyyətlidir. Tərkibindəki təbii duz, yod, maqnezium, brom və digər minerallar, eləcə də mənfi yüklü ionlar sayəsində dəniz havası nevroloji baxımdan çoxşaxəli müsbət təsirlər yaradır.

İlk növbədə, mənfi ionlar – yəni hava molekullarının oksigenlə zənginləşmiş və elektriklə yüklənmiş forması – beyində serotonin və melatonin kimi neyromediatorların istehsalını stimullaşdırır. Serotonin əhval-ruhiyyənin stabilləşdirilməsində, melatonin isə yuxu ritminin tənzimlənməsində mühüm rol oynayır. Bu təsir nəticəsində insan özünü daha sakit, balanslı və enerjili hiss edir.

Mənfi ionlarla zəngin dəniz sahilində beyin fəaliyyəti stabilləşir, kronik stress azalır və ağrıya həssaslıq azalır. Eyni zamanda, dəniz sahilindəki dalğaların təkrarlanan hərəkəti və ritmik səs beyində alfa dalğalarını aktivləşdirir. Bu dalğalar dərin rahatlama və meditasiyaya bənzər bir vəziyyət yaradır. Bu da həm yuxu problemlərinin aradan qaldırılmasına, həm də emosional gərginliyin azaldılmasına kömək edir.

Təbiətlə təmasda olmaq – xüsusilə də açıq dəniz mənzərəsinə baxmaq – vizual sistemdə sakitləşdirici impulslar yaradır. Açıq mavi rənglərin üstünlük təşkil etdiyi dəniz, səma kimi mənzərələr beyində parasempatik sinir sisteminin aktivliyini artırır. Bu isə bədənin istirahət və bərpa mexanizmini gücləndirir. Digər vacib faktor isə oksigen tərkibinin yüksəkliyi və havanın təmizliyidir. Bu, beyin hüceyrələrinin oksigenlə təmin olunmasını artırır, zehni diqqət və konsentrasiyanı yaxşılaşdırır.

Nəticə etibarilə, dəniz havası nevroloji cəhətdən yuxu keyfiyyətini artırır, yuxusuzluqla mübarizəyə kömək edir, baş ağrısı, migren və xroniki yorğunluğu azaldır, depressiv əlamətləri yüngülləşdirir, emosional sabitlik və daxili harmoniya yaradır, konsentrasiyanı artırır və yaddaşı gücləndirir.



Bu səbəbdən də, yay aylarında dəniz sahillərində vaxt keçirmək təkcə istirahət deyil, həm də nevroloji sağlamlığın qorunması baxımından təbii terapiya hesab oluna bilər.

**– Bu təsirlər hansı konkret nevroloji problemləri olan pasiyentlər üçün faydalı ola bilər?**

– Ən çox xroniki stress, panik atak, yuxusuzluq, depressiv hallar, migren və vegetativ sinir sistemi pozuntuları olan xəstələr üçün faydalıdır. Sinir sistemi pozuntuları olan xəstələrin bu cür mühitdə 20 dəqiqəlik gündəlik gəzinti belə sinir sistemini bərpa edə bilər. Dəniz havası və günəş işığı birlikdə vitamin D sintezini stimullaşdırır, serotonin səviyyəsini artırır və bu da depressiya simptomlarını azaldır. Həmçinin, dəniz havası və mühiti vegetativ sistemin balansını bərpa edir. VSSP-dən əziyyət çəkən şəxslərin 70%-də təbiətdə – xüsusilə dəniz sahilində – keçirdikləri zamanlarda simptomların xeyli yüngülləşdiyini və həyatlarının daha rahat olduğu müşahidə olunur.

**– Dəniz havasının beyin fəaliyyətinə və diqqətə də təsiri varmı?**

– Bəli, əlbəttə. Şəhər mühitində insan beyni səs-küy, süni işıq, vizual yüklənmə səbəbindən daima gərgin olur. Dəniz kənarında bu faktorlar aradan qalxdığı üçün beyin istirahət edir, diqqət və zehni çeviklik artır. Bu xüsusilə zəif diqqət, zehni yorğunluq, mental tükənmə yaşayan insanlar üçün çox vacibdir. Bu təbii mühitdə beyindəki stress hormonlarının səviyyəsi azalır, bununla da diqqət qabiliyyəti və informasiya emal etmə sürəti yaxşılaşır. Bu xüsusilə diqqət çatışmazlığı, zehni yorğunluq və mental tükənmə yaşayan insanlar üçün çox vacibdir.

**– Nevroloji sağlamlıq üçün sahil mühitində istirahət nə qədər tez-tez və hansı şəkildə tövsiyə olunur?**

– Təbii ki, hər bir pasiyentin fərdi vəziyyəti nəzərə alınmalıdır. Amma ümumi olaraq gündəlik 30-60 dəqiqəlik dəniz sahili gəzintiləri faydalıdır. Bu zaman həm fiziki aktivlik artır, həm də sinir sistemi rahatlayır. Səhər saatlarında və gün batımında sahildə olmaq daha effektivdir. Günəş vannası isə saat 10:00-dan əvvəl və 17:00-dan sonra qəbul edilməlidir.

**– Dəniz havasının möcüzəli təsirlərindən il boyu faydalanmaq mümkündür, yoxsa yalnız yay aylarında dəniz sahilinə getmək daha məsləhətdir?**

- Dəniz havasının insan sağlamlığına faydaları təkcə yay mövsümü ilə məhdudlaşmır. Əksinə, düzgün geyim və tibbi tövsiyələr nəzərə alınmaqla, dəniz sahilində olmaq ilin bütün fəsillərində, xüsusilə bahar və payız aylarında da çox faydalı ola bilər. Hətta bəzi hallarda qış aylarında dəniz havası ilə terapiya daha effektiv nəticə verir.

Yayda dəniz havasının faydası, əlbəttə ki, günəş işığı, D vitamini və açıq hava ilə birlikdə maksimal olur. Ancaq hava tərkibi – yəni dəniz havasının minerallarla, duz və mənfi ionlarla zəngin olması ilin bütün fəsillərində qorunur. Bu komponentlər dəyişmir, sadəcə havanın temperaturu və rütubəti dəyişir. Payız və bahar aylarında allergik reaksiyaların və hava dəyişikliklərinə bağlı baş ağrılarının azaldılmasında kömək edir. Belə ki, havaların nisbətən sərin olması autonom sinir sistemini tarazlayır, qan təzyiqi və ürək ritmini stabilləşdirir. Həmçinin, stress səviyyəsinin azaldılması və sezonal depressiyanın qarşısının alınması üçün mükəmməl mühitdir.

Qış aylarında dəniz sahilində oksigen və yod tərkibi daha da yüksək olur, çünki soyuq hava duzlu hissəcikləri daha uzağa daşıyır. Bu dövrdə sahillər daha sakit və səs-küysüz olur ki, bu da nevroloji rahatlıq və meditasiv effekt yaradır, yuxu ritmini və psixoloji stabilliyi yaxşılaşdırmaqda effektiv olur. Eləcə də tənəffüs yolları və beyin oksigenləşməsi baxımından da çox əlverişlidir.

**– Sonda oxucularımıza nə tövsiyə edərdiniz?**

– Dəniz havası təbiətin bizə bəxş etdiyi ən qiymətli sağlamlıq mənbələrindən biridir. Xüsusilə nevroloji problemlər yaşayanlar üçün bu, dərmanlarla yanaşı, əlavə və təbii bir müalicə üsulu kimi çox faydalıdır. İş, stres, gündəlik qayğılar bizi ruhən və fiziki yorğunluğa sürükləyir. Buna görə də, mümkün olduqca ilboyu dəniz kənarında təmiz hava udmaq, dalğaların səsini dinləmək, günəşin və təbiətin enerjisini hiss etmək sinir sistemimizi sakitləşdirir, diqqətimizi bərpa edir və ümumi sağlamlığımıza yaxşı təsir göstərir. Bu kiçik, amma dəyərli fasilələr sayəsində həyat keyfiyyətiniz yüksələr, stress səviyyəniz azalar. Eləcə də, belə təbii terapiya həm özünüz, həm də yaxınlarınız üçün faydalı və səmərəli olacaq.

*Müsahibəni apardı:*
*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi*

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Vaqif Musayevə qardaşı
**HÜMMƏT MUSAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Vaqif Musayevə qardaşı
**HÜMMƏT MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500